# ÖYRƏN - ÖYRƏT

https://archive.org/details/@oyrenoyret2021

DİNİ VƏ ELMİ HƏQİQƏTLƏR - 3

ÖYRƏN - ÖYRƏT



*De: "Mən bunun müqabilində sizdən heç bir əvəz istəmirəm. Yalnız Rəbbinə doğru bir yol tutmaq istəyən kimsələr olmalarını istəyirəm."*
*(Furqan surəsi, 57)*

## İÇİNDƏKİ BÖLÜMLƏR:


⇒ Elmi Həqiqətlər

⇒ Qurandan Mövzular

⇒ İman Həqiqətləri

⇒ Qurandan Soruş

⇒ Uşaqlar Üçün

⇒ Müqəddəs Kitablardan Qeydlər

⇒ Əlavə Mövzular


oyrenoyret2021@gmail.com

# Kainatdaki İncə Əyar

**Yeddi göyü qat-qat yaradan da Odur. Sən Rəhmanın yaratdığında heç bir uyğunsuzluq görməzsən. Bir gözünü qaldırıb** *(səmaya)* **bax, heç orada bir yarıq** *(çatdaq, nöqsan)* **görə bilərsənmi?! Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!**

(Mulk surəsi, 3-4)

**Məgər görmürsünüz ki, Allah yeddi göyü qat-qat necə yaratdı?!**

(Nuh surəsi, 15)

**O Allah ki, göylərin və yerin hökmü Onundur. O** *(Özünə)* **heç bir övlad götürməmişdir; mülkündə heç bir şəriki yoxdur. O, hər şeyi yaratmış və onu** *(onun nə cür olacağını)* **təqdir** *(əzəldən müəyyən)* **etmişdir.** (Furqan surəsi, 2)



Materialist fəlsəfə kainatdakı və təbiətdəki bütün sistemlərin öz-özünə fəaliyyət göstərən bir maşın kimi olduğunu və bunlardakı qüsursuz intizam və tarazlığın yaradıcısının təsadüflər olduğu iddiası ilə ortaya çıxdı. Amma hazırda materializmin və onun "elmi əsası" olan darvinizmin əsassızlığı elmi faktlarla sübut olunmuşdur.

XX əsrdə bir-birinin ardınca həm astrofizika, həm də biologiya sahələrində kəşf edilən elmi həqiqətlər kainatın və canlıların yaradıldığını sübut etdi. Bir tərəfdən, darvinizmin tezisləri bir-bir süqut edərkən, digər tərəfdən də kainatın yoxdan yaradıldığını göstərən "Biq bənq" (yəni "Böyük partlayış") və maddi dünyadakı böyük planın və incə əyarın ("Fine tuning") olduğunu göstərən dəlillər materializm iddialarının tutarsızlığını bir daha sübut etdi.

Canlı aləmin meydana gəlməsi üçün zəruri olan şərtlərə nəzər yetirəndə təkcə Yer kürəsinin bu cür xüsusi şəraitə malik olduğunu görürük. Yaşamağa əlverişli olan bu şəraiti təmin etmək üçün saymaqla qurtara bilməyəcəyimiz qədər şərt eyni anda, fasiləsiz olaraq gerçəkləşir. Kainatda təxminən 100 milyard qalaktikanın, onların hər birində 100 milyard ulduzun və bir o qədər də planetin olduğunu fikirləşsək, Yer kürəsində bu cür müstəsna bir şəraitin meydana gətirilməsinin əhəmiyyəti daha yaxşı aydın olacaq. *(Carl Sagan, Cosmos, Wings Books, ABŞ, 1980, ss. 5-7.)*

"Biq bənq"in partlayış sürətindən atomların fiziki tarazlığına, dörd əsas qüvvənin nisbətindən ulduzların kimyəvi əməliyyatlarına, Günəşin yaydığı şüanın cinsindən suyun maye dəyərinə, Ayın Yer kürəsinə olan məsafəsindən atmosferdəki qazların nisbətinə, Yer kürəsinin Günəşə olan uzaqlığından onun məhvərinin orbitinə olan mailliyinə, Yer kürəsinin öz ətrafındakı fırlanma sürətindən dünyadakı okeanların, dağların funksiyalarına qədər hər bir təfərrüat bizim yaşamağımız üçün fövqəladə dərəcədə münasibdir. Bu gün elm dünyası kainatın bu xüsusiyyətlərini "bəşəri prinsip" ("Anthropic principle") və "incə əyar" ("Fine tuning") məfhumları ilə ifadə edir. Bu anlayışlar kainatın məqsədsiz, nizamsız, təsadüfi maddə yığınından ibarət olmadığını, əksinə, insanın yaşamasını təmin edən bir məqsədə nəzərən həssas tərzdə planlaşdırıldığını xülasə edir.

Yuxarıdakı ayələrdə diqqətimiz Allahın yaratmasındakı ölçü və ahəngə cəlb edilir. Furqan surəsinin 2-ci ayəsində "ölçmək, biçmək, tənzimləmək, ölçü ilə etmək" mənalarına gələn "təqdirən", Mulk surəsinin 3-cü ayəsi ilə Nuh surəsinin 15-ci ayəsində isə "ahəng içində olan" mənasına gələn "tibəqa" kəlmələri işlədilir. Həmçinin Allah Mulk surəsində

"ixtilaf, ziddiyyət, uyğunsuzluq, nizamsızlıq" mənalarına gələn "təfavutin" kəlməsi ilə burada ahəngsizlik axtaranların buna nail ola bilməyəcəyini bildirir.




XX əsrin axırlarına yaxın dövrdə işlədilməyə başlanan "incə əyar" ifadəsi də bu ayələrdə bildirilən həqiqəti təsdiq edir. Son 20-30 ildə bir çox alimlər kainatın təsadüflər yığını olmadığını, əksinə, hər təfərrüatda insanın yaşayışını nəzərə alan fövqəladə bir plan və əyarlama məhsulu olduğunu göstərdilər. Kainatdakı bir çox xüsusiyyətlər kainatın yaşamaq üçün xüsusi olaraq planlaşdırıldığını açıq-aşkar göstərir. Fizik Karl Giberson bu gerçəyi belə ifadə edir:

*"Son 40 ildir fizika və kosmologiyadakı inkişaf elmi lüğətə "plan" kəlməsini qaytardı. 1960-cı illərin əvvəllərində fiziklər insan həyatı üçün aşkar "incə əyar"la hazırlanmış bir kainatın örtüyünü açdılar. Kainatda həyatın mövcud olmasının qüsursuz bir tarazlıqdakı fiziki amillərə bağlı olduğunu kəşf etdilər."* (K. Giberson, "The Anthropic Principle", Journal of Interdisciplinary Studies, c. 9, 1997, ss. 63-90, Steven Yates'den cevap, ss. 91-104.)

İngilis astrofiziki, professor Corc F.Ellis bu incə əyardan belə bəhs edir:

*"(Kainatdakı) bu kompleksi mümkün edən qanunlarda heyrətamiz bir incə əyar görünür. Kainatda mövcud olan bu kompleksin həyata keçməsi "möcüzə" sözünü işlətməməyi çox çətinləşdirir."* (F. Bertola, U. Curi, The Anthropic Principle: Laws and Environments, Cambridge University Press, 1993, s. 30.)

## "Biq Bənq"in Partlayış Sürəti

Kainatın təşəkkül tapması anı olan "Biq bənq"də qurulan tarazlıq onun təsadüfən meydana gəlməyəcəyinin açıq nümunələrindən biridir. Avstraliyadakı Adelaide Universitetinin məşhur riyazi fizika professoru Pol Devisə görə, "Biq bənq"dən sonra baş verən genişlənmə sürəti hətta milyard dəfə milyardda bir nisbətində ($1/10^{18}$) fərqli olsaydı da, kainat meydana gəlməzdi. (Paul Davies, Superforce: The Search for a Grand Unified Theory of Nature, 1984, s. 184.)

Stefan Haukinq də *"Zamanın qısa tarixi"* adlı əsərində kainatın genişlənmə sürətindəki bu fövqəladə müvazinəti belə qəbul edir: "Kainatın genişlənmə sürəti o qədər riskli bir nöqtədədir ki, "Biq bənq"dən sonrakı birinci saniyədə bu nisbət əgər yüz min milyon dəfə milyonda bir daha kiçik olsaydı, kainat indiki vəziyyətinə gəlməmişdən əvvəl çökərdi". (Stephen Hawking, A Brief History Of Time, Bantam Press, London, 1988, ss. 121-125.)



## Dörd Qüvvə

Kainatdakı bütün fiziki hərəkət və quruluşlar bu gün müasir fizikanın qəbul etdiyi "dörd əsas qüvvə"nin - Yerin cazibə qüvvəsinin, elektromaqnit qüvvəsinin, güclü nüvə qüvvəsinin və zəif nüvə qüvvəsinin əlaqəsi və tarazlığı sayəsində meydana gəlib. Bu qüvvələr bir-birindən fövqəladə dərəcədə fərqli dəyərlərə malikdir. Məşhur molekulyar bioloq Maykl Denton bu qüvvələr arasındakı həssas tarazlığı belə açıqlayır:

*"Əgər Yerin cazibə qüvvəsi bir trilyon qat daha güclü olsaydı, o zaman kainat daha kiçik bir yer olardı və ömrü də daha qısa davam edərdi. Orta bir ulduzun kütləsi hazırkı Günəşimizdən bir trilyon qat daha balaca olardı və ömrü də bir il qədər ola bilərdi.*

*Digər tərəfdən, əgər Yerin cazibə qüvvəsi bir az daha gücsüz olsaydı, heç bir ulduz və ya qalaktika əsla meydana gələ bilməzdi. Digər qüvvələr arasındakı tarazlıq da çox həssasdır. Əgər güclü nüvə enerjisi bir az daha zəif olsaydı, o vaxt kainatdakı yeganə qərarlı element hidrogen olardı. Başqa heç bir atom ola bilməzdi. Əgər güclü nüvə enerjisi elektromaqnit qüvvəsinə nisbətən bir az daha güclü olsaydı, həmin vaxt da kainatdakı yeganə qərarlı element nüvəsində iki proton olan bir atom olardı. Belə olacağı təqdirdə, kainatda heç hidrogen olmayacaq, ulduzlar və qalaktikalar -əgər meydana gəlsələr də- hazırkı quruluşlarından çox fərqli olacaqdılar. Açığı, əgər bu əsas güclər hazırda malik olduqları dəyərlərə eynilə malik olmasaydılar, heç bir ulduz, planet və atom da olmayacaqdı. Həyat da mövcud olmayacaqdı."* (Michael Denton, Nature's Destiny, The Free Press, New York, 1998, ss. 12-13.)



## Göy Cisimləri Arasındakı Məsafələr

Göy cisimlərinin fəzada yayılması və aralarındakı nəhəng boşluqlar Yer kürəsində canlı həyatın mövcud olması üçün vacibdir. Göy cisimləri arasındakı məsafələr dünyadakı həyatı dəstəkləyəcək şəkildə bir çox universal güclə ahəngdar olan bir hesab daxilində yerbəyer edilmişdir. Maykl Denton özünün "Təbiətin taleyi" ("Nature's Destiny") adlı kitabında supernovalar və ulduzlar arasındakı məsafədəki müvazinəti belə açıqlayır:

*"Supernovalar və əslində, bütün ulduzlar arasındakı məsafələr çox qarışıq bir mövzudur. Qalaktikamızda ulduzların bir-birinə uzaqlığı orta hesabla 30 milyon mildir. Əgər bu məsafə bir qədər daha az olsaydı, planetlərin orbitləri qərarsız hala gələrdi. Əgər bir az daha çox olsaydı, bir supernova tərəfindən paylanan maddə o qədər dağınıq hala gələcəkdi ki, bizimkinə oxşar planet sistemləri böyük ehtimalla əsla meydana gələ bilməyəcəkdi. Əgər kainat yaşamaq üçün əlverişli bir məkan olacaqdırsa, supernova partlayışları çox müəyyən bir nisbətdə həyata keçməli və bu partlayışlarla digər bütün ulduzlar arasındakı uzaqlıq çox aydın uzaqlıqda olmalı idi. Bu uzaqlıq hal-hazırda mövcud olan uzaqlıqdır."* (Michael J. Denton, Nature's Destiny, The Free Press, New York, 1998, s. 11.)

### Cazibə Qüvvəsi:

*◉ Əgər daha güclü olsaydı, dünya atmosferi daha çox ammonyak və metan qazı yığar, bu da həyat üçün çox mənfi olardı;*

*◉ Əgər daha zəif olsaydı, dünya atmosferi çox su itirər və yaşayış mümkün olmazdı.*

### Günəşə Uzaqlıq:

*◉ Əgər daha çox olsaydı, planetimiz çox soyuyar, atmosferdəki su dövranına mənfi təsir göstərər, planet buz dövrünə daxil olardı;*

*◉ Əgər daha yaxın olsaydı, planetimiz qovrular, atmosferdəki su dövranına mənfi təsir göstərər, həyat mümkün olmazdı.*

### Yer Qabığının Qalınlığı:

*◉ Əgər daha qalın olsaydı, atmosferdən Yer qabığına daha çox miqdarda oksigen ötürülərdi;*

*◉ Əgər daha nazik olsaydı, yaşamağı əlverişsiz edəcək miqdarda çox vulkanik hadisə baş verərdi.*

### Dünyanın Öz Oxu Ətrafında Fırlanma Sürəti:

*◉ Əgər daha yavaş olsaydı, gecə ilə gündüz arasındakı temperatur fərqi çox olardı;*

*◉ Əgər daha sürətli olsaydı, atmosfer küləklərinin sürəti daha çox olar, qasırğalar və tufanlar yaşamağı qeyri-mümkün edərdi.*

### Dünyanın Maqnit Sahəsi:

*◉ Əgər daha güclü olsaydı, çox qatı elektromaqnit fırtınaları olardı;*

*◉ Əgər daha zəif olsaydı, Yer kürəsi "Günəş küləyi" deyilən və Günəşdən atılan zərərli hissəciklər qarşısında mühafizəsiz qalardı. Hər iki vəziyyətdə də yaşamaq qeyri-mümkün olardı.*

### Albedo Təsiri (Yer Üzündən Əks Edən Günəş Şüasının Yer Üzünə Çatan Günəş Şüasına Nisbəti)

*◉ Əgər daha çox olsaydı, buz dövrü sürətlə başlayardı;*

*◉ Əgər daha az olsaydı, oranjereya təsiri həddindən artıq istiləşməyə səbəb olar, dünya əvvəlcə aysberqlərin əriməsi ilə suların*

*altında qalar, sonra da istidən qovrulardı.*

**Atmosferdəki Oksigen və Azot Nisbəti:**

*◉ Əgər daha çox olsaydı, həyati funksiyaları mənfi tərzdə sürətlənərdi;*

*◉ Əgər daha az olsaydı, həyati funksiyaları mənfi tərzdə ləngidərdi.*

**Atmosferdəki Karbondioksid və Su Nisbəti:**

*◉ Əgər daha çox olsaydı, atmosfer həddindən artıq isinərdi;*

*◉ Əgər daha az olsaydı, atmosferin hərarəti düşərdi.*

**Ozon Təbəqəsinin Qalınlığı:**

*◉ Əgər daha çox olsaydı, Yer kürəsinin temperaturu çox düşərdi;*

*◉ Əgər daha az olsaydı, Yer kürəsi həddindən artıq isinər, Günəşdən gələn zərərli ultrabənövşəyi şüalara qarşı bir mühafizəsi qalmazdı.*

**Seysmik (Zəlzələ) Hərəkətləri:**

*◉ Əgər daha çox olsaydı, canlılar üçün davamlı dağıntı olardı;*

*◉ Əgər daha az olsaydı, okean qatındakı qidalar suya qarışmaz, okean və dənizlərin həyatına, dolayısilə, bütün dünya canlılarına mənfi təsir edərdi.*

**Yer Kürəsinin Oxunun Əyriliyi:**

Dünyanın mehvəri öz orbitinə 23 dərəcəlik bir bucaqla maillik edir. Fəsillər bu maillik nəticəsində meydana gəlir. Bu maillik indiki dəyərindən daha çox, ya da daha az olsaydı, fəsillər arasındakı hərarət fərqi həddən artıq dərəcələrə çatacağı üçün dünyada dözülməz hərarətdə yay olar və həddindən artıq soyuq qış fəsilləri yaşanardı.

**Günəşin Böyüklüyü**

Günəşin yerində daha kiçik bir ulduzun olması Yer kürəsinin həddindən artıq soyumasına, böyük bir ulduzun olması isə dünyanın istidən yanıb qovurulmasına gətirib çıxarardı.

**Ayla Yer Kürəsi Arasındakı Cazibə Təsiri:**

*◉ Əgər daha az olsaydı, Ayın şiddətli cazibəsinin atmosfer şərtlərinə, Yer kürəsinin öz oxu ətrafındakı firlanma sürətinə və okeanlardakı qabarmalara-çəkilmələrə çox sərt təsirləri olardı;*

*◉ Əgər daha az olsaydı, şiddətli iqlim dəyişikliklərinə səbəb olardı.*

**Ayla Yer Kürəsi Arasındakı Məsafə:**

*◉ Əgər bir qədər daha yaxın olsaydı, Ay dünya ilə toqquşardı.*

*◉ Əgər bir qədər daha uzaq olsaydı, Ay kosmosda itib gedərdi;*

*◉ Əgər bir qədər daha az yaxın olsaydı, Ayın dünya üzərində yaratdığı qabarma-çəkilmələr təhlükəli səviyyədə böyüyərdi. Okean dalğaları qitələrin çökək yerlərini örtərdi. Bunun nəticəsində baş verən sürtünmə okeanların hərarətini çoxaldar və Yer kürəsində həyat üçün zəruri olan həssas temperatur balansı məhv olardı;*

*◉ Əgər bir qədər daha az uzaqlıqda olsaydı, qabarma-çəkilmələr azalar, bu da okeanların daha hərəkətsiz olmasına səbəb olardı. Durğun su dənizdəki həyatı təhlükəyə atar, bunun yanaşı nəfəs aldığımız havadakı oksigen nisbəti təhlükəli vəziyyətə düşərdi. (http://www.pathlights.com/ce_encyclopedia/01-ma10.htm#Elemental Forces)*

**Yer Kürəsinin Hərarəti və Karbon Əsaslı Həyat**

Həyatın əsası olan karbon elementinin mövcudluğu müəyyən səviyyədə qalan istiliyə bağlıdır. Karbon həyatı meydana gətirən amin turşusu, nükleik turşu və proteinlər kimi əsas üzvi molekullar üçün zəruri olan bir maddədir. Dolayısilə, həyat ancaq karbon əsasında mövcud ola bilər və bunun üçün də mövcud olan hərarət ən az -200 C, ən çox +1200 C ola bilər. Dünyanın hərarəti də bu aralıqdadır.

Burada sadalananlar Yer kürəsində həyatın meydana gəlməsi və canlı aləmin mövcudluğunun davam etməsi üçün vacib olan çox həssas tarazlıqlardan yalnız bir neçəsidir. Təkcə burada qeyd olunanlar da kainatın və dünyanın təsadüflər nəticəsində, təsadüfi hadisələrin bir-birinin ardınca gəlməsi sayəsində yarana bilməyəcəyini qəti şəkildə göstərmək üçün kifayətdir. XX əsrdə istifadə edilməyə başlanan “incə əyar”, “bəşəri prinsip” məfhumları Quranda əsrlərlə əvvəl bildirilən “ahəng və hesabla yaradılışı” təsdiq edir.

# Heç Bir Şey Allahdan Gizli Qalmaz:

**BƏQƏRƏ, 74:** Sonra bunun ardınca sizin qəlbləriniz sərtləşib daş kimi, hətta ondan da sərt oldu. Həqiqətən, daşlardan eləsi var ki, içərisindən çaylar qaynayıb çıxar. Onlardan eləsi də var ki, yarılar, içərisindən su çıxar. Eləsi də var ki, Allahın qorxusundan yuvarlanıb yerə düşər. Allah sizin nə etdiklərinizdən xəbərsiz deyildir.

**BƏQƏRƏ, 149:** Hara səfərə çıxsan, namaz qıldıqda üzünü Məscidulharama tərəf çevir! Çünki bu, sənin Rəbbindən gələn haqdır! Allah sizin etdiklərinizdən xəbərsiz deyildir.

**ALİ-İMRAN, 181:** "Allah kasıbdır, biz isə varlıyıq!" – deyənlərin sözünü Allah eşitdi. Biz onların dediklərini və haqsız olaraq peyğəmbərləri öldürmələrini yazacaq və onlara deyəcəyik: "Dadın yandırıb-yaxan Odun əzabını!

**NİSA, 63:** Allah onların qəlblərindəkini bilir. Onlara məhəl qoyma, onları aydınlat və özləri barədə onlara təsir göstərə biləcək gözəl sözlər söylə.

**NİSA, 81:** "Oldu, itaət edirik!" deyərlər. Ancaq Sənin yanından çıxdıqlarında onlardan bir qismi, söyləmiş olduqlarının əksinə (plan) qurur. Allah onların planlayıb qurduqları şeyləri qeyd edir. Onlara məhəl qoyma; Allaha güvən. Dəstəkləyici olaraq Allah yetər.

**MAİDƏ, 116:** Allah belə deyəcək: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara, 'Allahdan başqa məni və anamı da tanrı qəbul edin' dedin?" (İsa) belə cavab verəcək: "Sən Ucasan, haqqım olmayan bir şeyi söyləmək mənə yaraşmaz. Əgər belə bir şey söyləmiş olsaydım Sən bilərdin. Sən mənim düşüncəmi bilirsən; ancaq mən Sənin düşüncəni bilmərəm. Sən bütün gizli şeyləri bilirsən."

**ƏNAM , 3:** O, həm göylərdə, həm də yerdə ibadət olunan Tək Allahdır. O, gizlində saxladığınızı da bilir, aşkarda etdiyinizi də. O, sizin nə qazanacağınızı da bilir.

**ƏNAM, 59:** Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.

**YUNUS, 21:** İnsanlara üz verən bəladan sonra onlara bir mərhəmət daddırdığımız zaman ayələrimizə qarşı hiyləgərlik etməyə çalışarlar. De: "Allah daha tez hiylə qurar". Şübhəsiz ki, elçilərimiz (mələklər) qurduğunuz hiylələri yazırlar.

**YUNUS, 61:** Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın.

**HUD, 5:** Baxın, onlar ürəklərini qısırlar (küfrü ört-basdır edirlər) ki, Allahdan gizlənsinlər. Doğrusu, onlar libaslarına büründükdə belə, Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir.

**HUD, 123:** Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər də Ona qayıdacaqdır. Elə isə yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et. Rəbbin nə etdiklərinizdən xəbərsiz deyildir.

**RƏD, 9:** Allah qeybi və aşkarı Biləndir, Böyükdür, Ucadır.

**RƏD, 10:** Aranızdan sözü gizlədənlər də, onu açıq deyənlər də, gecə gizlənib, gündüz gəzib dolananlar da Allah üçün eynidirlər.

**İBRAHİM, 46:** Zalımlar öz hiylələrini qururdular. Halbuki onların hiyləsi Allaha bəlli idi. Onların hiyləsi ilə dağlar yerindən tərpənən deyildir.

**TA HA, 7:** Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir.

**ƏNBİYA, 3:** qəlbləri qəflət içində qaldığı halda. Zalımlar öz aralarında xəlvətcə pıçıldaşıb deyirlər: "Məgər bu sizin kimi

adi bir insan deyilmi? Gözünüz görə-görə sehrəmi inanacaqsınız?"

**ƏNBİYA, 4:** Peyğəmbər dedi: "Rəbbim göydə və yerdə deyilən sözləri bilir. O, Eşidəndir, Biləndir!"

**ƏNBİYA, 94:** Kim mömin olduğu halda yaxşı işlər görsə, onun zəhməti inkar olunmaz. Şübhəsiz ki, Biz onun əməllərini yazırıq.

**MUMİNUN, 17:** Biz sizin üstünüzdə yeddi göyü yaratdıq. Məxluqatımızdan da xəbərsiz olmamışıq.

**NƏML, 25:** Şeytan ona görə belə etmişdir ki, göylərdə və yerdə gizli olanı aşkara çıxardan, sizin gizlətdiklərinizi də, üzə çıxartdıqlarınızı da Bilən Allaha səcdə etməsinlər.

**NƏML, 75:** Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın.

**QASAS, 69:** Sənin Rəbbin onların qəlbinin həm gizli saxladıqlarını, həm də aşkar etdiklərini bilir.

**ƏHZAB, 37:** Bir zaman Allahın nemət verdiyi və sənin özünün nemət verdiyin kəsə (Zeyd ibn Harisəyə): "Zövcəni yanında saxla, Allahdan qorx!"– deyirdin. Allahın aşkar edəcəyi şeyi ürəyində gizli saxlayır və insanlardan çəkinirdin. Halbuki əslində qorxmalı olduğun məhz Allahdır. Zeyd zövcəsini boşadıqda səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman o qadınlarla evlənməkdə möminlərə heç bir sıxıntı olmasın. Allahın əmri mütləq yerinə yetəcəkdir.

**ƏHZAB, 54:** Sizin bir şeyi aşkara çıxarmanızdan və ya gizli saxlamanızdan asılı olmayaraq, başa düşün ki, Allah hər şeyi bilir.

**SƏBA, 3:** Kafirlər: "O Saat bizə gəlməyəcəkdir!"– dedilər. De: "Xeyr, qeybi bilən Rəbbimə and olsun ki, o, mütləq sizi haqlayacaqdır. Göylərdə və yerdə zərrə qədər olan bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın".

**FUSSİLƏT, 40:** Sözsüz ki, ayələrimizdən üz döndərənlər Bizdən gizli qalmazlar. Onda deyin görək oda atılan kimsə yaxşıdır, yoxsa Qiyamət gününə əmin-amanlıq içində gələn kimsə? İstədiyinizi edin! Həqiqətən, O, nə etdiklərinizi görür.

**ZUXRUF, 80:** Yoxsa onlar elə hesab edirlər ki, Biz onların sirlərini və gizli danışıqlarını eşitmirik? Xeyr! Yanlarında əməllərini yazan elçilərimiz vardır.

**CASİYƏ, 29:** Bu Bizim sizin əleyhinizə həqiqəti söyləyən kitabımızdır. Şübhəsiz ki, Biz sizin etdiyiniz əməlləri yazdırmışıq!"

**QAF, 16:** İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq.

**QAF, 17:** Sağında və solunda iki mələk oturub onun əməllərini qeydə alır.

**QAF, 18:** Dediyi elə bir söz yoxdur ki, onu yazmaq üçün yanında hazır durmuş gözətçi olmasın.

**TUR, 42:** Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar.

**MUCADƏLƏ, 6:** O gün Allah onların hamısını diriləcək və etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah onları hesaba almış, onlar isə etdiklərini unutmuşlar. Allah hər şeyə şahiddir.

**MUCADİLƏ, 7:** Məgər Allahın göylərdə və yerdə olan hər şeyi bildiyini görmürsən? Üç nəfərin arasında gedən elə bir xəlvəti söhbət yoxdur ki, onların dördüncüsü, beş nəfərin də altıncısı O olmasın. İstər bundan az, istərsə də çox olsunlar – harada olursa olsunlar, Allah onların yanındadır. Sonra Qiyamət günü onlara nə etdiklərini xəbər verəcəkdir. Allah hər şeyi bilir.

**TƏĞABUN, 4:** O, göylərdə və yerdə olanları bilir. Sizin gizlində və aşkarda nə etdiyinizi də bilir. Allah kökslərdə olanlardan agahdır.

**TƏHRİM, 3:** Bir zaman Peyğəmbər öz zövcələrindən birinə sirr verdi. O da bunu onun digər zövcəsinə xəbər verdikdə və Allah da bunu Peyğəmbərə aşkar etdikdə o, bunun bir qismini sirr verdiyi zövcəsinə bildirdi, digər qismindən isə

vaz keçdi. Peyğəmbər bunu ona bildirdikdə zövcəsi dedi: “Bunu sənə kim xəbər verdi?” O dedi: “Bunu mənə hər şeyi Bilən, Xəbərdar olan Allah xəbər verdi!”

**MULK, 13:** Sözünüzü gizli saxlasanız da, onu açıq desəniz də, fərqi yoxdur, Allah kökslərdə olanları bilir.

**MULK, 14:** Yaradan Allah Lətif və hər şeydən Xəbərdar olduğu halda, ola bilərmi ki, O, gizlində və aşkarda olanları bilməsin?

**İNFİTAR, 10:** Həqiqətən, sizin üstünüzdə nəzarətçilər vardır –

**İNFİTAR, 11:** çox möhtərəm, əməllərinizi yazanlar.

**İNFİTAR, 12:** Onlar sizin nə etdiklərinizi bilirlər.

## Elçiləri Yalançı Hesab Edən Cəmiyyətlər:

**HƏCC, 42:** Əgər səni yalançı saysalar, bil ki, səndən əvvəl Nuhun xalqı da, Ad və Səmud tayfaları da elçiləri yalançı saymışdı.

**HƏCC, 43:** İbrahim tayfası da, Lut xalqı da,

**HƏCC, 44:** Mədyən əhli də elçiləri yalançı saymışdı. Musa da yalançı sayılmışdı. Mən kafirlərə möhlət verdim, sonra onları əzabla yaxaladım. Mənim onları inkar etməyimin necə olduğunu bir görəydin!

**SAD, 12:** Onlardan əvvəl Nuh qövmü, Ad və dirəklər sahibi Firon da elçiləri yalançı saymışdılar.

**SAD, 13:** Həmçinin Səmud, Lut qövmü və Əykə əhli də. Bunlar əlbir dəstələr idi.

**SAD, 14:** Hər biri elçiləri yalançı hesab etdi və Mənim cəzam da gerçəkləşdi.

**QAF, 12:** Onlardan əvvəl Nuh qövmü, Rəss əhli, Səmud tayfası elçiləri yalançı saydı.

**QAF, 13:** Ad qövmü, Firon xalqı, Lut tayfası,

**QAF, 14:** Əykə əhli və Tubba qövmü – bunların hamısı elçiləri yalançı saydı və Mənim təhdidim gerçəkləşdi.

## Şəxsiyyətlərini İtirənlər:

**ƏNAM, 12:** De: “Göylərdə və yerdə olanlar kimə məxsusdur?” De: “Allaha məxsusdur!” Allah Özünə rəhmli olmağı yazmışdır. Gələcəyinə şübhə edilməyən Qiyamət günündə sizi O toplayacaqdır. Özlərini ziyana uğradanlar iman gətirməzlər.

**ƏNAM, 20:** Özlərinə Kitab verdiyimiz kəslər onu (Muhəmmədi) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Özlərini ziyana uğradanlar iman gətirməzlər.

**ƏRAF, 9:** Tərəziləri yüngül gələnlər isə ayələrimizə qarşı haqsızlıq etdiklərinə görə özlərini ziyana uğradanlardır.

**ƏRAF, 53:** Yoxsa kafirlər yalnız onun (Quranda verilən xəbərlərin) aqibətini gözləyirlər? Onun aqibəti gəldiyi gün əvvəllər onu unudan kəslər deyəcəklər: “Həqiqətən də, Rəbbimizin elçiləri haqqı gətirmişdilər. İndi bizim tərəfimizi saxlayan şəfaətçilər varmı? Yaxud geri qaytarılacağıqmı ki, əvvəllər etdiyimiz əməllərdən başqasını edək?” Onlar özlərini ziyana uğratdılar. Uydurduqları bütlər isə onlardan uzaqlaşıb qeyb olacaqlar.

**HUD, 18:** Allaha qarşı yalan uyduran kəsdən daha zalım kim ola bilər? Onlar Rəbbinin hüzuruna gətiriləcək və şahidlər: “Bunlar Rəbbinə iftira yaxanlardır”– deyəcəklər. Allahın lənəti olsun zalımlara!

**HUD, 19:** O kəslərə ki, insanları Allah yolundan sapdırır, onu əyri göstərməyə çalışır və Axirəti inkar edirlər.

**HUD, 20:** Onlar yer üzündə Allahdan yaxa qurtara bilməyəcəklər. Onların Allahdan başqa himayədarları da yoxdur. Onların əzabı qat-qat artırılar. Çünki onlar haqqı eşidə bilmirdilər və görmürdülər.

**HUD, 21:** Onlar özlərini ziyana uğradarlar. Uydurduqları bütlər isə onlardan qeybə çəkilib gedər.

# Allah Hər Şeyin Rəbbidir

**KƏHF, 14:** Onlar kafir hökmdarın qarşısında durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa məbuda ibadət etməyəcəyik. Əks halda olduqca böyük bir küfr danışmış olarıq!"– deyərkən onların qəlbinə qüvvət verdik.

**SAFFAT, 5:** O, həm göylərin, yerin və onların arasındakıların Rəbbi, həm də məşriqlərin Rəbbidir.



**MƏRYƏM, 65:** O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!

**ŞUƏRA, 26:** Musa dedi: "O sizin də, ulu babalarınızın da Rəbbidir!"

**DUXAN, 8:** Ondan başqa ibadətə layiq olan məbud yoxdur. O həm diriltdir, həm də öldürür. O həm sizin Rəbbiniz, həm də əcdadlarınızın Rəbbidir.

**SAFFAT, 126:** həm sizin Rəbbiniz, həm də əcdadlarınızın Rəbbi olan Allahımı tərk edirsiniz?"

**ŞUƏRA, 28:** Musa dedi: "Əgər anlayırsınızsa, bilin ki, O, şərqin, qərbin və bunların arasında olanların Rəbbidir!"

**FUSSİLƏT, 9:** De: "Doğrudanmı siz yeri iki gündə yaradana küfr edir və bütləri Ona tay tutursunuz? Axı O, aləmlərin Rəbbidir.

# Göyləri və Yeri Yaradan

**YUSUF, 101:** Ey Rəbbim! Sən mənə hakimiyyət verdin və mənə yuxuları yozmağı öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünyada da, axirətdə də mənim Himayədarımsan. Mənim canımı müsəlman kimi al və məni əməlisalehlərə qovuşdur".

**İBRAHİM, 10:** Elçiləri onlara dedilər: "Göyləri və yeri yaradan Allaha şəkk etməkmi olar? O, günahlarınızı bağışlamaq və sizə müəyyən vaxta qədər möhlət vermək üçün sizi iman gətirməyə çağırır". Onlar dedilər: "Siz də bizim kimi ancaq bir insansınız. Bizi atalarımızın ibadət etdiklərindən döndərmək istəyirsiniz. Elə isə bizə açıq-aydın bir dəlil gətirin".

**ƏNBİYA, 30:** Məgər kafirlər göylərlə yer bir olduğu zaman Bizim onları bir-birindən araladığımızı, hər bir canlını sudan yaratdığımızı görmürlərmi? Yenədəmi inanmırlar?

**ƏNBİYA, 56:** İbrahim demişdi: "Xeyr, sizin Rəbbiniz, yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm.

**FUSSİLƏT, 11:** Sonra O, tüstü halında olan göyə tərəf yönəlib ona və yerə: "Könüllü surətdə və ya məcburi olaraq gəlin əmrimə boyun əyin!"– dedi. Onlar: "Könüllü olaraq gəldik!"– dedilər.

**FUSSİLƏT, 12:** O, iki gündə onları yeddi göy kimi yaratdı və hər göyə onun özünə məxsus vəzifə tapşırdı. Biz dünya səmasını qəndillərlə bəzədik və mühafizəmizə götürdük. Bu, Qüdrətli və Bilən Allahın əzəli hökmüdür.



**SURA, 11:** Allah göyləri və yeri Yaradandır. O sizin üçün özünüzdən zövcələr, heyvanlardan da cütlər yaratdı. O sizi bu yolla çoxaldır. Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.

# Vertolyotun İlham Mənbəyi İynəcə





**Təbiət fotoqrafı Gilles Martin İynəcələri müşahidə edərkən.**

İynəcələr qanadlarını öz üzərlərinə qatlaya bilməz. Həmçinin uçma əzələlərinin qanadları hərəkət etdirmə forması digər böcəklərinkindən fərqlidir. Sırf bu xüsusiyyətlərindən ötrü təkamülçülər iynəcələrin "primitiv böcəklər" olduğunu iddia edirlər.



**Sikorsky helikopterləri, İynəcənin qüsursuz dizayn və manevr qabiliyyətləri təqlid edilərək hazırlanmışdır.**

Halbuki, "primitiv böcək" deyilən iynəcələrin uçuş sistemi bir dizayn möcüzəsidir. Dünyanın öndə gələn vertolyot istehsalçısı Sikorsky, son modelini iynəcədən nümunə götürərək dizayn etmişdir. *("Exploring The Evolution of Vertical Flight – at The Speed of Light", Discover, Ekim 1984, s.44-45.)* Bu layihədə Sikorskyə kömək edən İBM firması, iynəcənin şəklini bir kompyuterə (İBM 3081) yükləyərək işə başlamışdır. Kompyuterdə, iynəcənin havadakı manevrləri də göz önünə alınaraq 2000 ədəd xüsusi şəkil çəkilmişdir. Çalışmanın sonunda iynəcədən alınan nümunələrlə Sikorskynin əsgər və sursat daşımaq üçün yaratdığı yeni modeli ortaya çıxmışdır.

Təbiət fotoqrafı Gilles Martin isə iynəcələri araşdırmaq məqsədiylə 2 il davam edən bir təcrübə aparmışdı. *("Helikopter Böceği", Star, 16 Ağustos 1984, s. 32-33.)* Bu təcrübə sonunda əldə edilən məlumatlar, bu canlıların son dərəcə kompleks bir uçuş sisteminə sahib olduqlarını göstərir.

İynəcənin bədəni, metalla örtülmüş təəssüratı verən halqalı quruluşa malikdir. Buz mavisindən tünd qırmızıya qədər müxtəlif rənglərdəki gövdənin üzərində çarpaz halda yerləşmiş iki cüt qanad olur. Bu quruluş sayəsində, iynəcə çox yaxşı bir manevr qabiliyyətinə malikdir. Hansı sürətdə və hansı istiqamətdə uçursa uçsun, birdən dayanıb əks istiqamətdə uçmağa başlaya və ya havada sabit vəziyyətdə dayanıb ovuna hücum etmək məqsədiylə uyğun bir mövqe müəyyənləşdirməyə başlaya bilər. Bu vəziyyətdə olarkən olduğu yerdə cəld şəkildə dönərək ovuna doğru yönələ bilir. Çox qısa bir müddətdə, böcəklər üçün təəccüblü sayıla biləcək bir sürətə; saatda 40 km-ə çatır (Olimpiadalarda 100 metr məsafəni qaçan atletlərin sürəti saatda 39 km-ə qədərdir).

Bu sürətlə ovuna çarpar. Çarpmanın yaratdığı şok çox şiddətlidir. Amma iynəcənin zirehi həm çox möhkəm, həm də çox elastikdir. Zirehin elastik quruluşu çarpma zamanı yaranan enerjini özünə çəkərək böcəyə rahatlıq təmin edər. Amma eyni şeyi ovu üçün söyləmək qeyri -mümkündür. İynəcənin ovu, çarpmanın yaratdığı şok ilə ya tamamilə səndələyər və ya ölər.

Çarpmadan sonra isə iynəcənin ən təsirli silahları olan arxa ayaqları dövrəyə girər. Uçuş əsnasında arxaya doğru qıvrılmış halda olan ayaqlar, sürətlə önə açılaraq səndələmiş ovu havada tutar. Artıq sıra poladdan fərqsiz olan alt çənəyə gəlmişdir. Ov qısa müddətdə parçalanaraq yeyilir.

Çox yüksək sürətlərdə uçarkən ani manevrlər edə bilən iynəcənin görmə qabiliyyəti də qüsursuzdur. İynəcə gözü, dünyanın ən yaxşı böcək gözü kimi qəbul edilir. Hər birində 30 000-ə qədər ayrı göz bülluru olan bir cüt gözə malikdir. İki yarım kürəyə bənzəyən və başının yarısı qədər yer tutan gözlər, böcəyə çox geniş bir görüş sahəsi təmin edər. İynəcə gözləri sayəsində demək olar ki, arxasında olub bitən hadisələri belə müşahidə edə bilir.



Göründüyü kimi iynəcə hər biri ayrı-ayrılıqda mükəmməl quruluşa sahib bir sistemlər bütünüdür. Bu sistemlərin hər hansı birindəki kiçik bir əksiklik, digər sistemlərin işə yaramamasına səbəb olacaq. Amma sistemlərin hamısı qüsursuzca yaradılmışdır və bu sayədə canlı həyatını davam etdirər.

## İynəcənin Qanadları



**Yuxarıdakı şəkil iynəcənin uçuş zamanı qanad hərəkətlərini göstərir. Ön qanadlar qırmızı nöqtələrlə işarələnmişdir. Diqqət edilərsə, ön qanadlar ilə arxa qanadlar fərqli bir zaman ilə hərəkət etməkdədir. Bu, böcəyə üstün bir uçuş qabiliyyəti qazandırır. Bu qanadların hərəkəti isə bir-biri ilə ahəngdar çalışan xüsusi əzələlərlə təmin edilməkdədir.**

İynəcəni iynəcə edən ən əhəmiyyətli xüsusiyyəti qanadlarıdır. Qanadların istifadəsinə imkan verən uçuş mexanizminin mərhələli təkamül modeli ilə açıqlanması isə qeyri-mümkündür. Hər şeydən əvvəl qanad anlayışı təkamül üçün bir düyün nöqtəsidir. Çünki qanadlar yalnız tamamilə təkmilləşmiş olduqları təqdirdə funksiya yerinə yetirər. Bir anlığa hər hansı bir xarici faktordan ötrü, qurudakı bir böcəyin genlərində bir dəyişiklik (mutasiya) meydana gəldiyini və gövdədəki bəzi dəri təbəqələrində naməlum bir dəyişiklik yaşandığını düşünək. Bunun üzərinə yeni mutasiyalar əlavə olunaraq 'təsadüfən' bir qanad meydana gəlmiş ola biləcəyini proqnozlaşdırmaq tamamilə ağılsızlıqdır. Çünki gövdədə meydana gələcək mutasiyalar, böcəyə işləyən bir qanad qazandırmadığı kimi qurudakı hərəkət qabiliyyətini də xeyli azaldacaq. Çünki böcək hələ də uçmasına yaramayan, amma özünə yük olan bu strukturları daşımaq məcburiyyətindədir. Bu isə, bu böcəyin digər həm cinslərinə özündən daha çox üstünlük təmin edəcəkdir. Təkamül nəzəriyyəsinin təməli olan təbii seleksiya məntiqinə görə, bu şikəst canlının və onun nəslinin aradan götürülüb yox olması lazımdır.

Üstəlik, mutasiyalar çox nadir görünən dəyişikliklərdir. Üstəlik canlılara daim zərər verər, çox vaxt ölümcül şikəstliklərə səbəb olar. Dolayısilə başlanğıcda böcəklərin gövdəsindəki formasiyaların, kiçik-kiçik mutasiyalarla iynəcənin uçuş mexanizminə çevrilməsi, hər cəhətdən qeyri-mümkündür. Bütün bunlardan sonra bu sualı verək: Bütün qeyri-mümkünlüklərə baxmayaraq, təkamülçülərin ssenarisi reallaşmış olsa belə, bu ssenarini təsdiqləyəcək "primitiv iynəcə" fosilləri niyə heç cür tapılmır?

Əlimizdəki ən qədim iynəcə fosilləri ilə müasir dövrdə yaşayan nümunələri arasında heç bir fərq yoxdur. Bu ən qədim fosillərdən əvvəl yaşamış heç bir "yarım iynəcə", "qanadları yenicə meydana gələn iynəcə" fosili yoxdur.

Bu canlılar da, digər növlər kimi, bir anda meydana gəlmiş və bu günə qədər bir


250 Milyon illik İynəcə fosili.

dəyişikliyə uğramadan gəlib çıxmışlar. Yəni, bütün bu canlıları Allah yaratmışdır.

Böcəklərin skeletləri xitin adlı bir sıra buğumlu sərt təbəqədən meydana gəlir. Bu təbəqələr xarici skelet quruluşunu meydana gətirəcək qədər möhkəm xüsusiyyətdə yaradılmışdır. Eləcə də, uçma əzələlərinin təsirindən ötrü elastik xüsusiyyətə də malikdir. Qanadlar isə həm önə-arxaya həm də yuxarı-aşağı hərəkət edə bilər. Qanadların bu hərəkəti, özlərini gövdəyə bağlayan kompleks bir buğum quruluşu sayəsində reallaşar. İynəcənin belində biri qabaqda digəri isə arxada olan iki cüt qanad vardır. Qanadlar bir-birinin əksinə çalışar. Yəni öndəki iki qanad yüksələrkən, arxadakı iki qanad alçalar. Qanadların hərəkəti iki əks əzələ qrupunun hərəkəti ilə təmin edilər. Əzələlərin bir ucu gövdənin daxilində yerləşmiş ling şəklindəki əlavələrə bağlıdır. Bir əzələ qrupu gərilərək bir cüt qanadın yüksəlməsini təmin edərkən, o biri əzələ qrupu da eyni nisbətdə dartılaraq ikinci cütün alçalmasını təmin edər. Vertolyotlar da eyni üsulla alçalıb yüksələr. Bu səbəblə də iynəcələrin digər bir adı da vertolyot böcəyidir.

## İynəcənin Müxtəlifləşməsi

Dişi iynəcələr cütləşdikdən sonra yenidən cütləşmək istəməzlər. Ancaq bu vəziyyət elmi adı calopteryx virgo olan erkək iynəcələr üçün bir maneə təşkil etməz. Erkək quyruğundakı iki qarmağı ilə, dişini boğazından tutar (1). Dişi də ayaqlarıyla erkəyin quyruğunu möhkəm şəkildə tutar. Erkək quyruq qismindəki xüsusi çıxıntılardan istifadə edərək (2), əvvəlcə başqa erkəyin dişiyə yerləşdirdiyi spermaları mümkün qədər təmizləyər. Daha sonra sperma toxumlarını dişinin çoxalma diafraqmına boşaldar. Bu vəziyyət saatlarla davam etdiyinə görə bəzən erkək və dişi iynəcələr birlikdə uçar. İynəcə mayalanmadan sonra yetişən yumurtalarını bir göl və ya kiçik sututara qoyar. Yumurtadan çıxan sürfə 3-4 ilini suyun içində keçirər (4). Bu müddət ərzində tuta bildiyi hər şeyi yeyərək iştahla bəslənər (5). Bunun üçün, bir balığı tuta biləcək sürətdə üzməsini təmin edən bir bədən və ovunu parçalaya biləcək gücə sahib çənələrlə yaradılmışdır. Sürfə böyüdükcə bədənini əhatə edən dəri ona dar gəlir. Tam dörd dəfə özünə dar gələn bu paltarını dəyişdirər. Son dəyişmə vaxtı gələndə sudan çıxaraq bir qamışa və ya yosunlu bir qayaya dırmaşmağa başlayar (6). Ayaqları işləməz vəziyyətə gələnə qədər dırmaşar. Ayaqlarının ucundakı qarmaqlar sayəsində müvazinətini tənzimləyər. Bu əsnada sürüşüb düşmək, ölmək deməkdir.




Bu son dəyişmə, digər dörd dəyişmədən daha fərqlidir. Allah, möhtəşəm bir yaradılışla, sürfə halındakı canlını qüsursuz uçan bir canlı halına gətirər.

Əvvəlcə köhnə sürfənin üstü çatlayar. Çat başdan sona doğru genişlənərək bir yarıq halını alar. Sudakı canlı ilə heç bir əlaqəsi olmayan digər bir canlı, bu yarığın

içindən çıxmağa çalışır. Son dərəcə zərif görünən bədənini, köhnə bədənin içindən çıxan və onu təhlükəsizlik kəməri kimi əhatə edən bağlar tutub saxlayır. Bu bağlar ideal bir möhkəmlik və elastikliyə sahib şəkildə yaradılmışdır. Əgər bağlar daha sərt və möhkəm olsaydı, böcəyin yarığın içindən çıxıb doğrulması qeyri-mümkün olacaqdı. Əks təqdirdə isə bağlar yeni bədənin müqavimətinə dözə bilməyərək qopacaqdı. Bu da hələ inkişaf etməmiş sürfənin suya düşüb ölməsinə səbəb olacaqdı.




Digər tərəfdən iynəcənin qabıq dəyişdirmə əməliyyatını asanlaşdıracaq xüsusi mexanizmlər dövrəyə girər. İynəcənin yeni bədəni, köhnə bədənin içində olarkən əzilib büzülmüşdür. Bu bədəni "aça bilmək" üçün, xüsusi bir nasos sistemi və bu nasosda istifadə edilən xüsusi bir bədən mayesi yaradılmışdır. Yarıqdan çölə çıxan qisimlərə bədən mayesi nasoslanaraq, böcəyin əzilib büzülmüş qisimləri genişləndirilir (9). Bu vaxt işləməyə başlayan kimyəvi həlledicilər, yeni ayaqlara heç bir zərər vermədən, köhnə ayaqlarla olan bağı qoparar. Təkcə bir ayaq belə köhnə zirehin içində sıxışıb qalsa, bu bir fəlakət olar, amma əməliyyat qüsursuzca reallaşar. Ayaqların, çölə çıxmaq üçün sınaqdan keçirilmədən əvvəl iyirmi dəqiqə qədər quruyub sərtləşməsi gözlənilər.

*Qanadlar isə əvvəlcədən inkişaf etmişdir, lakin mərtəbəli bir vəziyyətdədir. Güclü əzələ sıxılmaları ilə qanaddakı damarlara bədən mayesi vurularaq buradakı toxumaların əsaslı surətdə gərginləşməsi təmin edilər (10). Qanadlar uzanıb gərildikdən sonra qurumaları üçün bir müddət daha gözləyəcəklər (Ali Demirsoy, "Yaşamın Temel Kuralları / Omugasızlar / Böcekler / Entomoloji", Ankara: Meteksan AŞ., cilt II, kısım II, 1992, s. 737).*

Köhnə bədən tamamilə tərk edildikdən və quruma da tamamlandıqdan sonra iynəcə bütün ayaqlarını və qanadlarını bir sınaqdan keçirər. Ayaqlar ayrı-ayrılıqda bükülüb açılar, qanadlar isə qaldırılıb endirilər.

Nəhayət böcək uçmaq üçün dizayn olunmuş formasını almışdır. İnsan öz gözüylə görmədiyi təqdirdə, bu qanadlı gözəlliyin, sudan çıxan tırtıla bənzər canlıyla eyni heyvan olduğuna inana bilməz. İynəcə son olaraq nasoslama əməliyyatının müvəffəqiyyətlə çalışması üçün, artıq bədən mayesinin son damlasını da çölə atar. Artıq müxtəlifləşmə tamamlanmışdır və böcək uçmağa hazırdır.

Bu möcüzəvi çevrilmənin necə baş verdiyini düşündüyümüzdə isə, təkamül iddiasının ağılsız bir iddia olduğunu bir dəfə daha görürük. Çünki təkamül nəzəriyyəsi, canlıların yalnız təsadüfi dəyişikliklərin təsiri nəticəsində meydana gəldiklərini iddia edər. Halbuki, iynəcənin keçirdiyi müxtəlifləşmə prosesi, tək bir mərhələsində belə ən kiçik bir səhvə yol verilməyəcək qədər olduqca həssas bir əməliyyatdır. Bu mərhələlərin hər hansı bir nöqtəsində əmələ gələcək cüzi bir qüsur, müxtəlifləşmənin tamamlana bilməməsinə səbəb olacaq və bu da iynəcənin şikəst qalmasıyla, ya da ölməsiylə nəticələnəcək. Müxtəlifləşmə tam mənasıyla "sadələşdirilməz kompleks"liyə sahib bir prosesdir. Dolayısilə açıq gözlə görülən bir dizaynın sübutudur.

Bir sözlə, iynəcənin müxtəlifləşməsi, Allahın canlıları nə cür qüsursuz bir yaradılışla yaratdığını göstərən saysız dəlildən biridir. Allah tək bir böcəkdə möhtəşəm sənətini göstərir.

# Allah Kimləri Doğru Yola Yönəldir?

**NƏHL, 120:** Həqiqətən, İbrahim Allaha müti, hənif bir rəhbər idi. O, müşriklərdən deyildi.

**NƏHL, 121:** O, Allahın nemətlərinə şükür edən idi. Allah onu seçmiş və doğru yola yönəltmişdi.

**BƏQƏRƏ, 186:** Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər.

**ŞURA, 13:** Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər.

**ƏNFAL, 29:** Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla nahaqqı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir.

**NƏHL, 9:** Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi.



**ƏNAM , 125:** Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar.

**TƏVBƏ, 18:** Allahın məscidlərini yalnız Allaha və Axirət gününə iman gətirən, namaz qılan, zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abadlaşdırar. Ola bilsin ki, onlar doğru yolla gedənlərdən olsunlar.

**NƏHL, 104:** Allahın ayələrinə inanmayanları, əlbəttə ki, Allah doğru yola yönəltməz və onlar üçün ağrılı-acılı bir əzab vardır.

**YUNUS, 9:** İman gətirib saleh əməllər işlədənləri Rəbbi imanlarına görə doğru yola yönəldər. Nəim bağlarında onların ayaqları altından çaylar axar.

**MAİDƏ, 15:** Ey Kitab əhli! Kitabın gizlədiyiniz bir çox bölümünü açıqlayan və bir çoxunu da üzünüzə vurmayan elçimiz gəldi sizə. Allahdan bir nur və açıq-aşkar bir kitab da gəldi sizə.

**MAİDƏ, 16:** Onunla Allah, rizasını arayan şəxsləri barış və hüzur yollarına yönəldir. İzniylə onları qaranlıqlardan aydınlığa çıxararaq onları ən doğru yola yönəldir.

**QASAS, 56:** Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah istədiyini doğru yola yönəldir. O, doğru yolda olanları daha yaxşı tanıyır.

**BƏQƏRƏ, 150:** Hara səfərə çıxsan, namaz qıldıqda üzünü Məscidulharama tərəf çevir! Harada olursunuzsa olun, üzünüzü ona tərəf çevirin ki, zalımlardan başqa heç kəsin sizə qarşı bir dəlili olmasın. Onlardan qorxmayın, Məndən qorxun ki, Mən də sizə olan nemətimi tamamlayım və bəlkə, siz doğru yola yönələsiniz.

**BƏQƏRƏ, 156:** O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!"– deyirlər.

**BƏQƏRƏ, 157:** Onlara öz Rəbbi tərəfindən dəstək və rəhmət vardır. Məhz onlar doğru yolda olanlardır.

**ŞURA, 13:** Allah Nuha tövsiyə etdiyini, sənə vəhy etdiyimizi, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyimizi sizin üçün də dində qanun etdi: "Dinə doğru-düzgün etiqad edin və onda bölünüb firqə-firqə

olmayın!" Sənin dəvət etdiyin tövhid müşriklərə ağır gəldi. Allah istədiyi kəsi Özü üçün seçər və Ona üz tutanı Özünə tərəf yönəldər.

**BƏQƏRƏ, 2:** Bu, şübhəsiz, müttəqilər üçün yol göstərən bir Kitabdır.

## Dirilmə Günü İnkarçılar Müsəlman Olmağı Necə Arzulayarlar?

**ƏNAM , 27:** Atəşin başında saxlanıldıqları vaxt onların, "Kaş ki, geri döndərilsəydik və Rəbbimizin ayələrini (vəhy və möcüzələrini) inkar etməsəydik və iman edənlərdən olsaydıq," dediklərini bir görsən!



**ƏRAF, 53:** Yoxsa kafirlər yalnız onun (Quranda verilən xəbərlərin) aqibətini gözləyirlər? Onun aqibəti gəldiyi gün əvvəllər onu unudan kəslər deyəcəklər: "Həqiqətən də, Rəbbimizin elçiləri haqqı gətirmişdilər. İndi bizim tərəfimizi saxlayan şəfaətçilər varmı? Yaxud geri qaytarılacağıqmı ki, əvvəllər etdiyimiz əməllərdən başqasını edək?" Onlar özlərini ziyana uğratdılar. Uydurduqları bütlər isə onlardan uzaqlaşıb qeyb olacaqlar.

**İBRAHİM, 44:** İnsanları onlara əzab gələcəyi günlə qorxut. O gün zalımlar deyəcəklər: "Ey Rəbbimiz! Bizə yaxın bir vaxta qədər möhlət ver ki, sənin dəvətini qəbul edək və elçilərin arxasınca gedək". Onlara deyiləcəkdir: "Məgər əvvəllər siz dünyadan köçməyəcəyiniz barədə and içməmişdiniz?!

**MUMİNUN, 99:** Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar.

**MUMİNUN, 100:** Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm". Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır.

**ŞUƏRA, 203:** Onlar deyəcəklər: "Bizə möhlət veriləcəkmi?"

**SƏCDƏ, 12:** Kaş ki, günahkarları öz Rəbbi qarşısında başlarını aşağı dikərək: "Ey Rəbbimiz! Biz gördük və eşitdik. Bizi geri qaytar ki, yaxşı işlər görək. Həqiqətən də, biz qətiyyətlə inandıq!"– deyəndə görəydin!

**SƏCDƏ, 29** De: "Hökm günü kafirlərə imanları fayda verməyəcək və onlara möhlət də verilməyəcəkdir".

**FATİR, 37:** Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi buradan çıxart ki, əvvəllər etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək". Onlara deyiləcək: "Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi? Sizə qorxudub xəbərdar edən də gəlmişdi. Elə isə dadın əzabı! Zalımlara kömək edən olmaz".

**ZUMƏR, 58:** Həm də əzabı gördüyü zaman deməsin: "Kaş ki, bir də dünyaya qayıdaydım, yaxşı işlər görənlərdən olardım!"

**MUMİN, 11:** Onlar deyəcəklər: "Ey Rəbbimiz! Sən bizi iki dəfə öldürüb, iki dəfə diriltdin. Biz öz günahlarımızı etiraf etdik. Oddan çıxmağa bir yol varmı?"

**ŞURA, 44:** Allah kimi azğınlığa salsa, bundan sonra onun heç bir himayəçisi olmaz. Sən zalımları əzabı gördükləri zaman: "Qayıtmağa bir yol yoxdurmu?"– deyən görəcəksən.

**MUNAFİQUN, 10:** Sizlərdən birinə ölüm gəlib: "Ey Rəbbim! Mənə bir az möhlət ver ki, sədəqə verib əməlisalehlərdən olum!"– deməmişdən əvvəl sizə verdiyim ruzidən xərcləyin.

**FƏCR, 23:** və o gün Cəhənnəm gətiriləcək. O gün insan günahlarını xatırlayacaqdır. Lakin bu xatırlamanın ona nə faydası?

**FƏCR, 24:** O: "Kaş axirət həyatım üçün əvvəlcədən hazırlıq görəydim!"– deyəcəkdir.

## Allah Kimləri Doğru Yola Yönəltməz?

**NƏHL, 104:** Allahın ayələrinə inanmayanları, əlbəttə ki, Allah doğru yola yönəltməz və onlar üçün ağrılı-acılı bir əzab vardır.

**ALİ-İMRAN, 86:** İman gətirdikdən, Peyğəmbərin həqiqi peyğəmbər olduğuna şahid olduqdan və özlərinə aydın dəlillər gəldikdən sonra kafir olan adamları Allah necə doğru yola yönəldər? Allah zalım adamları doğru yola yönəltməz.

**NİSA, 115:** Doğru yol özünə bəlli olduqdan sonra kim elçiyə qarşı gələr və iman edənlərin yolundan fərqli bir yol seçərsə, onu seçdiyi yönə yönəldər və onu Cəhənnəmə atarıq. Ora necə də pis bir dönüş nöqtəsidir.

**MAİDƏ, 49:** Aralarında Allahın nazil etdiyi ilə hökm verməlisən. Onların kefinə uyma. Allahın sənə nazil etdiklərinin bir qismindən əsla səni çaşdırmasınlar. Üz çevirərlərsə, deməli ki, Allah bəzi günahlarına görə onları cəzalandırmaq istəyir. Gerçəkdən insanların çoxu yoldan çıxmışdır.



**ƏNAM, 35:** Üz çevirmələri sənə ağır gəldisə, biləsən ki, yerin içinə bir dəlik açmağa ya da göyə nərdivan dayamağa gücün yetsə, bir möcüzə ortaya qoysan yenə də təsir etməz... Allah istəsəydi onları doğru yola toplayardı. Elə isə cahillərdən olma!

**ƏNAM, 110:** Biz onların ürəklərini və gözlərini ilk dəfə ona iman gətirmədikləri kimi tərsinə çevirər və onları öz azğınlıqları içərisində sərgərdan dolaşan vəziyyətdə tərk edərik.

**ƏNAM, 111:** Əgər Biz onlara mələkləri göndərsəydik, ölülər də onlarla danışsaydı və hər şeyi onların qarşısına toplasaydıq, Allah istəməyincə, onlar iman gətirməzdilər. Lakin onların çoxu bunu bilmir.

**YUNUS, 43:** Onlardan sənə baxanlar da vardır. Məgər korları – əgər görmürlərsə – sənmi doğru yola yönəldəcəksən?

**YUNUS, 96:** Həqiqətən, sənin Rəbbinin Sözü özlərinin əleyhinə doğru çıxmış kimsələr iman gətirməzlər.

**YUNUS, 97:** Onlara ayələrin hamısı gəlsə belə, ağrılı-acılı əzabı görməyincə iman gətirməzlər.

**NƏML, 81:** Sən korları düşdükləri azğınlıqdan doğru yola çıxara bilməzsən. Sən haqqı yalnız müsəlman ikən ayələrimizə inananlara eşitdirə bilərsən.

**CASİYƏ, 23:** Nəfsinin istəyini ilahiləşdirən şəxsi gördünmü? Allah əzəli elmi sayəsində onu azğınlığa saldı, qulağını və qəlbini möhürlədi, gözünə də pərdə çəkdi. Allahdan başqa kim onu doğru yola yönəldə bilər? Məgər düşünüb anlamırsınız?

**MUNAFİQUN, 3:** Bu ona görədir ki, onlar iman gətirdikdən sonra kafir oldular. Sonra da onların qəlbinə möhür vuruldu. Artıq onlar anlamırlar.

**NƏHL, 9:** Doğru yol göstərmək Allaha aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi.

## Allah Necə Yol Göstərər?

**İSRA, 9:** Həqiqətən, bu Quran insanları ən doğru yola yönəldir və yaxşı işlər görən möminlərə, özləri üçün böyük mükafat olacağı ilə müjdə verir.

**BƏQƏRƏ, 2:** Bu, şübhəsiz, müttəqilər üçün yol göstərən bir Kitabdır.

**NƏHL, 64:** Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən və bu, mömin adamlar üçün doğru yol göstəricisi və mərhəmət olsun.

**NƏHL, 102:** De: "Müqəddəs Ruh (Cəbrail) onu sənin Rəbbindən iman gətirənləri

sabitqədəm etmək üçün, həm də müsəlmanlara doğru yol göstəricisi və müjdə olsun deyə gerçək olaraq nazil etmişdir".

**CİN, 1:** De: "Mənə vəhy olundu ki, cinlərdən bir dəstə Quranı dinlədikdən sonra öz tayfalarına qayıdıb dedilər: "Həqiqətən, biz heyrətamiz bir Quran dinlədik!

**CİN, 2:** O, doğru yola yönəldir. Biz ona inandıq və bundan sonra əsla kimsəni Rəbbimizə şərik qoşmayacağıq.



**CİN, 13:** Biz doğru yolu göstərən rəhbəri eşitdiyimiz zaman ona iman gətirdik. Rəbbinə iman gətirən, nə savabının azalmasından, nə də haqsızlığa uğramaqdan qorxmaz.

**NƏHL, 89:** O gün hər ümmətə özlərindən bir şahid göndərəcəyik, səni də onlara şahid gətirəcəyik. Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yol göstəricisi, mərhəmət və müjdə olaraq nazil etdik.

**BƏQƏRƏ, 185:** İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar. Xəstə və ya səfərdə olanlar isə başqa günlərdə eyni sayda oruc tutmalıdırlar. Allah sizin üçün çətinlik deyil, asanlıq istəyir. O, istəyir ki, siz müddəti (buraxdığınız günlərin orucunu) tamamlayasınız və sizi doğru yola yönəltdiyinə görə Onu uca tutasınız. Bəlkə şükür edəsiniz.

**ZUMƏR, 23:** Allah Sözün ən gözəlini – ayələri bir-birinə bənzəyən və təkrarlanan Kitab kimi nazil etdi. Rəbbindən qorxanların ondan dəriləri ürpəşər. Sonra isə Allahı yad etməklə dəriləri və qəlbləri yumşalır. Bu, Allahın hidayətidir. Onunla istədiyini doğru yola yönəldir. Allahın zəlalətə saldığı şəxsə isə yol göstərən olmaz.

**YUNUS, 57:** Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, kökslərdə olana bir şəfa, möminlərə doğru yol göstəricisi və mərhəmət gəlmişdir.

**BƏQƏRƏ, 97:** De: "Cəbrailə düşmən olan kəs bilsin ki, Allahın izni ilə Quranı özündən əvvəlkiləri təsdiqləyən, möminlərə doğru yol göstərən və müjdə verən bir kitab kimi sənin qəlbinə o nazil etmişdir".

**ALİ-İMRAN, 138:** Bu, insanlar üçün bir xəbərdarlıq, müttəqilər üçün də bir yol göstərici və öyüddür.

**ƏRAF, 52:** Biz onlara biliyimizlə izah etdiyimiz, iman gətirən qövm üçün hidayət və mərhəmət olan bir Kitab göndərdik.

**ƏRAF, 154:** Musanın qəzəbi sakitləşəndə lövhələri götürdü. Onlardakı yazılarda Rəbbindən qorxanlar üçün hidayət və mərhəmət var idi.

**MUMİN, 53:** Biz Musaya doğru yolu göstərən rəhbər verdik və İsrail oğullarını Kitaba varis etdik –

**MUMİN, 54:** ağıl sahiblərinə doğru yol göstəricisi və öyüd-nəsihət kimi.

**HƏCC, 8:** İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yol göstəricisi və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir.

**TA HA, 123:** Allah buyurdu: "Bir-birinizə düşmən kəsilərək hamınız buradan yerə enin. Məndən sizə doğru yol göstəricisi gəldiyi zaman hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar.

**RƏD, 7:** Kafir olanlar deyirlər: "Niyə ona Rəbbindən bir möcüzə endirilməyib?" Sən ancaq xəbərdar edənsən. Hər qövmün bir yolgöstərəni vardır.

**NƏHL, 9:** Doğru yol göstərmək Allaha

aiddir. Əyri yollar da vardır. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi.

**ŞURA, 52:** Biz sənə Öz əmrimizdən olan ruhu (Quranı) vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik. Həqiqətən, sən onları doğru yola yönəldirsən –

**MAİDƏ, 15:** Ey Kitab əhli! Kitabın gizlədiyiniz bir çox bölümünü açıqlayan və bir çoxunu da üzünüzə vurmayan elçimiz gəldi sizə. Allahdan bir nur və açıq-aşkar bir kitab da gəldi sizə.

**MAİDƏ, 16:** Onunla Allah, rizasını arayan şəxsləri barış və hüzur yollarına yönəldir. İzniylə onları qaranlıqlardan aydınlığa çıxararaq onları ən doğru yola yönəldir.

**SƏBA, 6:** Elm verilmiş insanlar Rəbbindən sənə nazil edilənin haqq olduğunu, onun Qüdrətli, Tərifəlayiq Allahın yolunu göstərdiyini görürlər.

**ƏHQAF, 29:** Bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına yolladıq. Onlar onu dinləməyə gəldikdə bir-birinə: “Susun, qulaq asaq!”– dedilər. Quran oxunub qurtardıqdan sonra isə xəbərdar etmək məqsədilə öz tayfalarının yanına qayıtdılar.

**ƏHQAF, 30:** Onlar dedilər: “Ey qövmümüz! Biz, həqiqətən də, Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiqləyən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik!

## Allahın Qəzəbi Nədir və Kimədir?

**BƏQƏRƏ, 90:** Allahın, lütfünü qullarından istədiyinə endirməsini qısqanaraq Allahın nazil etdiyini inkar etmək üçün şəxsiyyətlərini satmaları necə də pisdir. Beləcə üst-üstə qəzəbə düçar oldular. Kafirlərə alçaldıcı bir əzab var.

**ALİ-İMRAN, 112:** Harada olursa olsunlar, - Allahın ipinə, ya da insanların ipinə (sözləşməsinə) sığınanlar xaric- alçaldılar. Allahın qəzəbinə layiq görüldülər və yoxsulluğa məhkum edildilər. Çünki onlar, Allahın ayələrini inkar edir və peyğəmbərləri haqsız yerə öldürürdülər. Bütün bunlar, qarşı gəlmələri və həddi aşmalarının bir nəticəsi idi.



**NİSA, 93:** Kim iman etmiş birisini qəsdən öldürərsə yeri, daimi qalacağı cəhənnəmdir. Allah ona qəzəb və lənət etmişdir. Və onun üçün böyük bir əzab hazırlanmışdır.

**MAİDƏ, 59:** De: “Ey Kitab əhli! Allaha, bizə nazil edilənə və öncəki nazil edilənlərə iman etdik deyəmi yoldan çıxan əksəriyyətinizlə bizə qarşı nifrət bəsləyirsiniz?"

**MAİDƏ, 60:** De: “Allah qatında bundan daha pis bir vəziyyəti sizə xəbər verim-mi? Allah kimə lənət və qəzəb edərək meymunlar, donuzlar, bütpərəstlər halına salmışsa, bax o kimsələr yer baxımından daha pis və doğru yoldan ən çox azmış olanlardır.

**ƏRAF, 152:** Həqiqətən, buzova sitayiş edənlərə öz Rəbbindən bir qəzəb və dünya həyatında zillət üz verəcəkdir. Biz iftira yaxanları belə cəzalandırırıq.

**ƏNFAL, 16:** Daha bir döyüş əməliyyatı keçirmək üçün tərəfə çəkilən və ya başqa bir dəstəyə qoşulanlar istisna olmaqla, kim belə bir gündə onlara arxa çevirərsə, Allahın qəzəbinə düçar olar. Onun sığınacağı yer Cəhənnəmdir. Ora necə də pis dönüş yeridir.

**NƏHL, 106:** Qəlbi imanla sabit qaldığı halda haqqı danmağa məcbur edilən kəslər istisna olmaqla, kim iman gətirdikdən sonra Allahı inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır.

**TA HA, 80:** Ey İsrail oğulları! Biz sizi düşməninizdən xilas etdik. Sizə sağ tərəfinizdəki dağın yanına gəlməyiniz üçün vədə verdik. Sizə göydən manna və bildirçin endirdik.

**TA HA, 81:** Sizə verdiyimiz ruzilərin təmizindən yeyin və bunda həddi aşmayın, yoxsa sizə qəzəbim tutar. Qəzəbimə gəlmiş kimsə isə bədbəxt olar.

**TA HA, 86:** Musa qəzəbli, kədərli halda qövmünün yanına qayıdıb dedi: "Ey qövmüm! Məgər Rəbbiniz sizə gözəl bir vəd verməmişdimi? Doğrudanmı bu vaxt sizə uzun gəldi? Yoxsa Rəbbinizdən sizə bir qəzəb gəlməsini istəyib mənə verdiyiniz vədə xilaf çıxdınız?"

**ŞURA, 16:** Allahın dəvəti qəbul olunduqdan sonra Onun barəsində mübahisəyə girişənlərin dəlili Rəbbinin yanında boş şeydir. Onlar dünyada qəzəbə düçar olacaqlar. Axirətdə isə onları şiddətli əzab gözləyir.

**FƏTH, 6:** Həm də ona görədir ki, Allah Özü barəsində pis fikirdə olan münafiq kişi və münafiq qadınlara, müşrik kişi və müşrik qadınlara əzab versin. Onların pis niyyəti özlərini bəlaya salsın! Allahın onlara qəzəbi tutmuşdur. Allah onları lənətləmiş və onlar üçün Cəhənnəm hazırlamışdır. Ora nə pis dönüş yeridir.

## Allahın Təhdidi?

**ƏNAM , 130:** Allah deyəcək: "Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi xəbər verən və bu gününüzlə qarşılaşacağınız barədə sizə xəbərdarlıq edən elçilər gəlmədimi?" Onlar deyəcəklər: "Biz öz əleyhimizə şahidlik edirik!" Onları dünya həyatı aldatdı və onlar kafir olduqları barədə özlərinə qarşı şəhadət verdilər.

**HİCR, 49:** Qullarıma xəbər ver ki, Mən Bağışlayanam, Rəhmliyəm.

**HİCR, 50:** Əzabım isə ağrılı-acılı əzabdır.

**ƏNKƏBUT, 40:** Biz hər birini öz günahına görə yaxaladıq. Onlardan kimisinin üstünə qasırğa ilə birgə daşlar göndərdik, kimisini qorxunc səs yaxaladı, kimisini yerə batırdıq, kimisini də suya qərq etdik. Allah onlara zülm etmirdi, onlar ancaq əməlləri ilə özləri özlərinə zülm edirdilər.



**ZUMƏR, 15:** Siz də Ondan başqa istədiyinizə ibadət edin". De: "Şübhəsiz ki, ziyan çəkənlər Qiyamət günü özlərini və ailələrini ziyana uğradanlardır. Açıq-aşkar ziyan da elə budur!"

**ZUMƏR, 16:** Onların üstündə də oddan təbəqələr, altında da oddan təbəqələr olacaqdır. Allah Öz qullarını bununla qorxudur. Ey qullarım! Məndən qorxun!

**LƏYL, 14:** Mən sizi alov saçan bir odla qorxutdum.

**LƏYL, 15:** Ona ancaq ən bədbəxt kimsə girər.

## Allah Bütün İnsanları Qədər (Tale) ilə Yaratmışdır

Jurnalın 1-ci seriyasında sizə ilk insan olan hz. Adəmin yaradılışından danışmışıq. Allah digər insanları da hz. Adəmin nəslindən yaratmışdır. Onları dünyaya imtahan etmək üçün yerləşdirmiş və nələr etməli olduqlarını da elçiləri vasitəsilə onlara öyrətmişdir.
Hər insan dünyada yaşadığı hadisələrlə imtahan olunar. Yəni qarşılaşdığı hadisələr qarşısında necə reaksiya verəcəyi, necə sözlər söyləyəcəyi, çətinliklər qarşısında səbir edib, etməyəcəyi, bir sözlə, gözəl əxlaqlı olub olmayacağı ilə imtahan olunar. Bu imtahanın nəticəsi əsasında, ölümdən sonra axirətdə necə həyat yaşayacağı müəyyənləşdirilər.
Amma dünyadakı imtahanın çox əhəmiyyətli bir sirri var. Allah insan üçün böyük rahatlıq olaraq qədəri (taleyi) yaratmışdır. Qədər (Tale), yəni bir insanın yaşayacağı bütün hadisələr, hələ o insan doğulmadan əvvəl Allah Qatında müəyyənləşdirilmişdir. Hər insan üçün ayrı bir qədər (tale) yaradılmışdır.
Bunu daha yaxşı anlamağınız üçün qədəri (taleyi) hər hansı video kasetdəki bir filmə bənzədə bilərik. Video kasetdəki bir filmin əvvəli və sonu məlumdur, ancaq biz bunu seyr etdikdən sonra öyrənə bilərik. Məhz qədər (tale) də belədir. Bir insanın doğulduğu andan etibarən edəcəyi hər şey, qarşılaşacağı hadisələr, harada oxuyacağı, nə zaman harada yaşayacağı və nə zaman öləcəyi qədərində (taleyində) müəyyənləşdirilmişdir. Allah bu insanın başına gələn bütün yaxşı və pis hadisələri bilir. Hər insan dünyada özü üçün müəyyənləşdirilmiş bu ssenari əsasında imtahan olunar. Yəni kənardan müdaxilə edilməsi qətiyyən mümkün olmayan bir ssenari daxilində bəzi hadisələr yaşayar və bunlara verdiyi reaksiyalara görə axirətdə müəyyən qarşılıq alar.



İnsanın başına gələn hər şey, doğulmasından ölümünə kimi Qədərində bəllidir. Bunu bir film lenti kimi düşünə bilərsiniz. Film lentini əlimizə alıb ona baxsaq, hadisələrin başlanğıcını, ortasını və sonunu eyni anda görə bilərik.

Qədər (Tale) insan üçün çox böyük asanlıq və Allahın lütfüdür. Buna görə də, bir insanın sonu əvvəlcədən məlum olan hadisələr üçün kədərlənməsi, yolunda getməyən bir şey olduqda sıxılması çox mənasızdır. Dünyadakı imtahana səbir edib, hər şeyin Allahdan gəldiyini bilənləri, Allah, ayələrində cənnətlə müjdələyir. Bu mövzuda peyğəmbərlər ən gözəl nümunədir. Allah insanları xəbərdar etmək üçün göndərdiyi elçilərini gözəl əxlaqlarından ötrü cənnətlə müjdələmişdir.

## Allah Elçilər və Kitablar Göndərmişdir

Allah bizə, Özünü tanıtmaq və insanlardan nələr istədiyini bildirmək üçün kitablar göndərmişdir. Həmçinin Rəbbimiz, istədiklərini bəzən yazılı, bəzən də şifahi şəkildə insanlara çatdırmaları üçün, seçdiyi və çox üstün əxlaq xüsusiyyətlərinə sahib peyğəmbərlərə vəzifə vermişdir.

Peyğəmbərlərin sayını tam olaraq bilmirik. Yalnız Allahın göndərdiyi son müqəddəs kitab olan Quranda bildirilən peyğəmbərlərin adlarını bilirik. Allah, bizə bu peyğəmbərlərin həyatlarını gözəl davranış və düşüncələrə nümunə olaraq göstərmişdir. Rəbbimiz, göndərdiyi peyğəmbərlər vasitəsilə insanın dünya həyatındakı davranış və həyat tərzinin, yeni dinin necə olmalı olduğunu izah etmişdir. Məhz biz də necə davranışlar göstərməli olduğumuzu, nəyin daha yaxşı və gözəl əxlaqa uyğun olduğunu Allahın bildirməsi sayəsində bilərik. Allahın bəyənib bizə qarşılığında mükafat verəcəyi davranışları, bəyənməyib xoşlamadığı və qarşılığında cəza verəcəyi davranışları da ancaq Onun bildirməsi sayəsində öyrənərik.



Quranda Allahın tarix boyu bütün cəmiyyətlərə Özünü tanıdacaq elçilərini göndərdiyi bildirilir. Peyğəmbərlər göndərildikləri cəmiyyətləri daim xəbərdar ediblər. Onları Allaha ibadət etməyə, dua etməyə və Onun istədiklərini yerinə yetirməyə çağırıblar. Əks təqdirdə cəzalandırılacaqlarını bildiriblər. Yəni yaşadıqları cəmiyyətləri xəbərdar etmiş, Allahı və Onun dinini inkar edənləri, pis əməllər işləyənləri qorxutmuş və iman edən insanları da Allah tərəfindən mükafatlandırılacaqlarıyla müjdələmişdirlər. Çünki Allah yaxşı insanları ölümlərindən sonra cənnətlə müjdələyir, pis insanları da cəhənnəmlə qorxudub

başlarına gələcəklər barədə xəbərdar edir (Cənnət və cəhənnəm mövzularını sonrakı başlıqlar altında daha ətraflı izah edəcəyik).

Allahın insanlara göndərdiyi son peyğəmbər hz. Məhəmməd (s)-dir. Son müqəddəs kitab da Qurandır.

Qurandan əvvəl göndərilən kitabları isə, pis niyyətli insanlar dəyişdirmişdirlər. Bu kitablar zamanla dəyişdirilmiş, unudulmuş və ya yoxa çıxmışdırlar. Buna görə də onların əsli, yəni ilk göndərilən halları dövrümüzə gəlib çatmamışdır. Amma Allah bizə, qətiyyən dəyişdirilə bilməyəcəyini bildirdiyi Quranı göndərmişdir.

Peyğəmbərimiz həzrəti Məhəmməd (s) və ondan sonra yaşamış müsəlmanlar da Quranı çox yaxşı qorumuş və çoxaltmışdırlar. Quran hər kəsin anlaya biləcəyi şəkildə açıq-aydındır. Quranı oxuduğumuz vaxt, bunun Allahın sözü olduğunu dərhal başa düşürük. Dövrümüzə qədər dəyişilmədən gəlib çıxmış Quran Allahın qoruması altındadır və qiyamətə qədər etibarlı olan yeganə müqəddəs kitabdır.

Bu gün dünyanın hər yerindəki Quran kitabları bir-birinin eynisidir, sözündə hətta tək bir hərfində belə heç bir fərq yoxdur. Peyğəmbərimiz (s)-in yaxın dostlarından və xəlifələrindən (yerinə idarəçi olaraq qoyduğu insan) hz. Osmanın dövrümüzdən 1400 il əvvəl yazdırdığı Quranla bugünkü Quran kitabları arasında da heç bir fərq yoxdur. Hamısı tamamilə eynidir. Deməli, Quran Peyğəmbərimiz (s)-ə endirildiyi ilk gündən bəri heç bir dəyişikliyə uğramadan bu günə qədər gəlib çatmışdır. Çünki Allah, Quranı pis niyyətli insanların dəyişdirməsindən qorumuşdur. Allah bizə Quranı xüsusi olaraq qoruyacağını yenə bir Quran ayəsində belə xəbər verir:

**Şübhəsiz ki, Zikri** *(Quranı)* **Biz nazil etdik, sözsüz ki, Biz də onu qoruyub saxlayacağıq.**
**(Hicr surəsi, 9)**

Allah bu ayədə keçən "Biz" sözüylə Özünü nəzərdə tutur. Allahdan başqa ilah yoxdur, Onun şəriki, yardımçısı da yoxdur. Allah hər şeyə gücü çatan, sonsuz bilik və qüvvət sahibi, tək olan İlahdır.

Allah Quranda Özü üçün bəzi yerlərdə "Biz", bəzi yerlərdə isə, "Mən" xitabını işlədir. Quranın əsil dili olan ərəb dilində "biz" sözü tək bir insan üçün də işlədilər. Bu qarşı tərəfdə güc, qüdrət və hörmət hissi oyatmaq üçün işlədilər. Eynilə dilimizdə də, qarşıdakı bir insana, hörmət məqsədiylə "sən" əvəzinə "siz" demək kimi. Artıq jurnalın Uşaqlar Üçün bölümünün bundan sonrakı hissələrində sizə surələrdən (yəni Quran başlıqlarından) və ayələrdən (yəni Quran cümlələrindən) nümunələr verəcəyik. Bunlar ən doğru sözlərdir. Çünki bizi yaradan və bizi bizdən daha yaxşı bilən Allahın sözləridir.

Allah bizə Quranda peyğəmbərlərin həyatlarından nümunə götürməyimizi bildirmişdir.

**Bu ayə belədir:**

*(Peyğəmbərlərin)* **hekayətlərində ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır. (Yusif surəsi, 111)**



Allahın bu ayədə diqqət çəkdiyi insan, Quranın Allahın sözü olduğunu bilib bunun əsasında düşünən, ağlını işlədən Quranı anlamağa və tətbiq etməyə çalışan insandır.

Allah, peyğəmbər göndərdiyi cəmiyyəti Öz əmrlərinə tabe olmaqdan məsul tutur. İnsanlar da özlərinə Allahın xəbərdarlığı çatdığı üçün axirətdə hesab verərkən ortaya heç bir bəhanə ata bilməyəcəklər. Çünki Allahın elçiləri göndərildikləri cəmiyyətlərə, Allahın varlığından və Onun insanlardan nələr etmələrini istədiyindən danışarlar. Beləliklə də, bu sözləri eşidən insanlar məsuliyyət daşımağa başlayarlar. Quranda belə bildirilmişdir:

**Biz müjdə verən** *(yəni Allahın ölümdən sonra yaxşı insanlara verəcəyi mükafatla müjdələyən)* **və xəbərdar edən** *(yəni Allahın ölümdən sonra pis insanlara cəza verəcəyini söyləyən)* **elçilər göndərdik ki, insanların elçilərdən sonra Allaha qarşı bir bəhanəsi olmasın. Allah üstün və güclüdür, hökm və hikmət sahibidir. (Nisa surəsi, 165)**

Allah yer üzündə bir çox insan cəmiyyəti yaratmışdır. Bu cəmiyyətlərdən bəziləri özlərinə göndərilən elçilərin söylədiklərini yalan sayıb, onları elçi olaraq qəbul etmədiklərini söyləmişdirlər. Elcə də, onların sözlərini dinləmədikləri, Allahın əmrlərini yerinə yetirmədikləri üçün cəzlandırılmışdırlar. Allah peyğəmbərləri ilə, Öz sözünə uyamayacaqları təqdirdə, dünyada da pis qarşılıq alacaqlarıyla bu cəmiyyətləri xəbərdar etmişdir. Buna baxmayaraq, bu cəmiyyətlər peyğəmbərlərə qarşı çıxmağa və onlara böhtan atmağa başlamışdırlar, hətta onları öldürmək istəyəcək qədər aqressivləşmişdirlər. Bundan ötrü də, Allah onlara layiq olduqları və alacaqlarını söylədiyi qarşılığı vermişdir. Bu cəmiyyətlərin yerlərini zaman keçdikcə yeni cəmiyyətlər almışdır. Quranda Allah belə cəmiyyətlərin vəziyyətini bu cür bildirir:

**Məgər onlar özlərindən əvvəl neçə-neçə nəsilləri məhv etdiyimizi görmədilərmi? Biz onlara yer üzündə sizə vermədiyimiz imkanları vermişdik. Onların üzərinə göydən bol-bol yağış yağdırmış və** *(evlərinin)* **altından çaylar axıtmışdıq. Biz onları günahlarına görə həlak etdik və onlardan sonra başqa nəsillər yaratdıq. (Ənam surəsi, 6)**

Peyğəmbərlərin həyatlarından verəcəyimiz nümunələrdə Allahı rədd edən bu cəmiyyətlərlə yanaşı, Allaha iman edən insanların nümunəvi davranışlarından da danışacağıq.

## İlk İnsan və İlk Peyğəmbər: Hz. Adəm

Xatırlayırsınızsa jurnal;n 1-ci seriyas;nda insanın yaradılışından bəhs edərkən ilk insanın hz. Adəm olduğunu söyləmişdik. Hz. Adəm eyni zamanda ilk peyğəmbərdir. Yəni Allah ilk insan nəslinə dərhal bir peyğəmbər də göndərmiş və onlara dinlərinin nə olacağını və Allah üçün nələr etməli olduqlarını öyrətmişdir.

Allah ilk insan olan Adəm peyğəmbərə danışmağı və hər şeyin adını öyrətmişdir. Bu, Quranda belə bildirilir:

Və Adəmə bütün şeylərin adlarını öyrətdi… (Bəqərə surəsi, 31)

Bunun nə qədər əhəmiyyətli olduğunu düşünün. Allahın yaratdığı canlılar içində yalnız insan danışaraq razılığa gəlir. Danışmaq insana məxsus xüsusiyyətdir. Ətrafındakı əşyaları tanıması və onlara bir ad verməsi bunları Allahın ilk olaraq Adəm peyğəmbərə öyrətməsi sayəsində olmuşdur.



Adəm peyğəmbərdən sonra gələn nəsil də, hazırkı dövrdə dünyada yaşayan insanlar kimi, düşünə bilən, danışan, hissləri olan, sevinən, kədərlənən, paltar geyinən, əşyalardan istifadə edən, incəsənət və musiqi qabiliyyəti olan insanlar idi. Elm adamlarının araşdırmaları nəticəsində tapılan ən qədim insan qalıqlarının yanında əşyaların, fleyta kimi musiqi alətlərinin, divar rəsmlərinin tapılması, bu söylədiklərimizin tarixi dəlilləridir.

Yəni bəzi insanların iddia etdiyi kimi ilk insanlar heç vaxt yarı insan -yarı meymun kimi vəhşi varlıqlar olmadılar. Onsuz da heç bir meymunun və ya başqa canlının danışa, düşünə və insan kimi davrana bilməyəcəyini bilirsiniz. Bütün bu qabiliyyətləri Allah insana xüsusi olaraq vermişdir.




Lakin ilk insanın hz. Adəm olduğunu qəbul etmək istəməyən bəzi insanlar özlərinə görə müxtəlif iddialar ortaya atmışdırlar. İlk insana saxta şəxsiyyət geyindirmişdirlər. Bunların yalan iddialarına əsasən insan və meymun eyni canlıdan, yəni ortaq bir atadan gəlmiş və zaman keçdikcə dəyişikliklərə uğrayaraq bugünkü hallarına çatmışdırlar. Bu qəribə iddianın necə reallaşdığını soruşsanız tək cavab var:

"Təsadüfən oldu". "Bəs bunu isbat edəcək dəlil vardır mı?" sualını versəniz də heç bir dəlil göstərə bilməzlər. Yəni insanın başqa bir canlıdan yaranıb bugünkü halına gəldiyi iddiasını sübut edən tək bir qalıq belə yoxdur.

"Keçmişə aid qalıqlar nələrdir?" deyə soruşsanız, bunu belə izah edə bilərik: Bəzi canlılar öldükləri zaman arxalarında izlərini qoyub gedərlər və bu izləri, yəni qalıqları milyonlarla il heç çürümədən qala bilər. Ancaq bunun baş verməsi üçün həmin canlının hava ilə təmasının birdən-birə kəsilməlidir. Məsələn, bir quş yerdə qonmuş halda durarkən üzərinə birdən-birə qum yığını tökülsə və oradaca ölsə, bu quşun qalıqları dövrümüzə qədər gəlib çata bilər. Eləcə də, ağaclardan axan və bala bənzəyən kəhrəba adlı mayelər var. Bəzən bu kəhrəba, bir böcəyin üzərinə axar və böcək bu kəhrəbanın içində qalıb ölər. Beləliklə də, sərtləşərək milyonlarla il heç çürümədən dövrümüzə qədər gəlib çata bilər. Biz də beləliklə çox qədimdən yaşamış canlılar barədə məlumat əldə edə bilərik. Məhz canlılardan qalan bu qalıqlara "fosil" deyilər.



Üst cərgədə qarışqa, qurbağa və balıq fosillərini görürsünüz. Bu şəkillərdən də göründüyü kimi keçmişdə yaşayan qarışqalar, qurbağalar və ya balıqlar ilə indikilər arasında heç bir fərq yoxdur.

İlk insanın meymun bənzəri bir canlıdan meydana gəldiyini irəli sürənlər, bununla əlaqədar bir fosil göstərə bilməzlər. Yəni dünyada heç vaxt yarı meymun-yarı insan kimi qəribə bir canlıya aid fosil tapılmamışdır. Lakin bu insanlar bu səhvlərini gizlətmək üçün saxta fosillər, saxta şəkillər, saxta təsvirlər düzəltmiş və bunları dərsliklərə belə yerləşdirmişdirlər.

Əlbəttə ki, bu saxtakarlıqları zamanla ortaya çıxmış və elmi saxtakarlıqlar adı altında hər yerdə yazılmışdır. Yəni bu insanların vəziyyəti əvvəlcə izah etdiyimiz çizgi film qəhrəmanın vəziyyəti kimidir. Bu cür insanlar inadkar və ağılsız olduqları üçün, Allahın varlığını qəbul etmələri və hər şeyi Onun yaratdığını dərk etmələri sanki qeyri -mümkündür. Bunların sayları getdikcə azalır. Lakin hələ də bəzi məktəblərdə, qəzetlərdə, jurnallarda bu yanlış düşüncələrini yaymağa çalışırlar. İnsanları inandırmaq üçün də söylədiklərinin elmi və doğru olduğunu israrla təkrarlayırlar. Halbuki ağıllı elm adamlarının ortaya qoyduğu istənilən araşdırma nəticələri və dəlillər, meymunun insana çevrilmədiyini elmi cəhətdən də sübut etmişdir.

Hz. Adəm, yəni ilk insan bugünkü insanlar kimidir və Allah onu xüsusi olaraq yaratmışdır. Bunlar Allahın bizə Quranda bildirdiyi həqiqətlərdir. Hz. Adəmlə əlaqədar olaraq Allahın Quranda bizə xəbər verdiyi çox əhəmiyyətli bir mövzu daha var: Bütün insanların düşməni olan şeytanla hz. Adəm arasında yaşanan hadisələr...

# İnsanın Ən Böyük Düşməni: Şeytan

Yəqin ki, şeytanla əlaqədar bəzi şeylər bilirsiniz. Ancaq sizi çox yaxşı tanıdığını və sizi hər hansı yolla mütləq aldatmağa çalışdığını bilirsinizmi? Bəs bəzi hallarda özünü dostunuz kimi göstərərək, sizi aldatmağa çalışan şeytanın əsl məqsədini bilirsiniz mi? Gəlin ən başından başlayaq və şeytanın niyə bizim ən böyük düşmənimiz olduğunu xatırlayaq. Bunun üçün sizə hz. Adəm və şeytan arasında yaşanan və Quranda bildirilən bir hadisədən danışaq.



Qurana görə şeytan; hz. Adəmdən etibarən bütün insanları Allah yolundan azdırmaq üçün çalışan və qiyamətə qədər də bunun üçün çalışacaq varlıqların ümumi adıdır. Şeytanların ən böyüyü isə, hz. Adəmin yaradılmasıyla birlikdə Allaha üsyan edən İblisdir.

Qurandan öyrəndiyimizə görə Allah hz. Adəmi yaratmış və mələklərdən hörmət ifadəsi olaraq ona səcdə etmələrini istəmişdi. Mələklər Allahın əmrini yerinə yetirdiyi halda, İblis hz. Adəmə səcdə etmədi. Özünün insandan daha üstün varlıq olduğunu irəli sürdü. İtaətsiz və utanmaz olduğuna görə Allahın hüzurundan qovuldu.



Allahın hüzurundan ayrılmadan əvvəl, bu vəziyyətə düşməsinə səbəb olan insanları özü kimi azdırmaq üçün Allahdan möhlət istədi. Şeytanın məqsədi özünə verilən möhlət ərzində insanları Allah yolundan azdırmaqdı. Bunun üçün hər yolu sınayacaq və insanların əksəriyyətini özünə uymasını təmin edəcəkdi. Allah şeytanı və ona uyanları cəhənnəmə dolduracağını bildirdi. Burada danışdığımız hadisələr Quranda belə xəbər verilir:

Sizi yaratdıq, sonra sizə surət verdik və mələklərə: "Adəmə səcdə edin!" dedik. İblisdən başqa hamısı səcdə etdi. O, səcdə edənlərdən olmadı.

*(Allah dedi:)* "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" *(İblis:)* "Mən ondan daha yaxşıyam. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" dedi.

*(Allah)* buyurdu: "Oradan aşağı en! Orada təkəbbür göstərmək sənə yaraşmaz. Çıx, çünki sən alçaqlardansan.

*(İblis)* dedi: "Mənə qiamətə qədər möhlət ver".

*(Allah)* buyurdu: "Sən möhlət verilənlərdənsən.

*(İblis)* dedi: "Sən məni azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz

yolunun üstündə oturub insanlara mane olacağam.
Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən".
*(Allah)* buyurdu: "Oradan rüsvay olmuş və kənar edilmiş halda çıx! Onlardan hər kim sənə uysa, əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam. (Əraf surəsi, 11-18)

Şeytan Allahın hüzurundan qovulduqdan sonra, qiyamətə qədər davam edəcək mübarizəsinə başladı. İnsanları aldadaraq yoldan çıxartmaq üçün onların yanlarına gəldi. Hiyləgərcəsinə tələlər qurdu, insanları heç ağıllarına gəlməyəcək üsullarla aldatdı. İndi daha yaxşı anladığınız kimi, şeytan insana çox hiyləgərcəsinə yaxınlaşan bir düşməndir. Bundan ötrü də, ondan qorunmaq üçün çox böyük diqqət göstərməlisiniz.



Unutmayın ki, şeytan hazırda da sizi aldatmaq üçün gözləyir. Bu jurnalı oxumağınıza, oxuduqlarınızı düşünməyinizə mane olmağa çalışır. Sizi, bir dostunuza yaxşılıq etməkdən, böyüklərinizin sözünə qulaq asmaqdan, Allaha şükür etməkdən və dua etməkdən, daim doğruları söyləməkdən uzaqlaşdırmağa çalışır. Qətiyyən şeytanın sizi aldatmasına, yalanları ilə gözəl əxlaqlı insan olmağınıza, vicdanınızın səsini dinləyərək hərəkət etməyinizə mane olmasına icazə verməyin.



Ağlınıza pis bir düşüncə gəldiyi vaxt və ya canınız gözəl bir şey etmək istəmədikdə dərhal şeytandan Allaha sığının və Allahdan kömək istəyin. Allahın Quranda bildirdiyi kimi şeytanın iman edən insanlar üzərində heç bir təsirinin olmayacağını da əsla unutmayın.



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

# TÖVRATDAN:

## İman Gətirənlər Allaha Qəlbdən Bağlı və Yaxındır

Allahınız Rəbdən qorxun, Ona sitayiş edərək **sadiq qalın** və yalnız Onun adı ilə and için. (Qanunun Təkrarı, 10:20)

Özünüz üçün salehlik əkin, Məhəbbət bəhərini biçərsiniz... **Çünki Rəbbi axtarmaq vaxtıdır...** (Huşə, 10:12)

**Allahın Rəbbə üz tut**, ey İsrail... **Dua sözləri ilə Rəbbə tərəf dönün**. Ona belə deyin: Hər qəbahətimizi bağışla, Bizi mərhəmətlə qəbul et... (Huşə, 14:1-2)

Buna görə də sən Allahına üz tut, Məhəbbətə, ədalətə bağlan, Daim Allahına ümid bağla (Huşə, 12:6)

Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır. (Zəbur, 145:18)



Ey qəlbim, sükutla Allahı gözlə, Çünki ümidim Ondadır. (Zəbur, 62:5)

Ya Rəbb, Sənə ürəyimi təqdim edirəm, (Zəbur, 25:1)

Qoy sizin ürəyiniz bütünlüklə Allahımız Rəbbə sadiq olsun ki, bu gün olduğu kimi Onun qanunları ilə gedəsiniz və **Onun əmrlərinə əməl edəsiniz**. (Birinci Padşahlar, 8:61)

Məni sevənləri sevirəm, **Məni səylə axtaran tapır**. (Süleymanın Məsəlləri, 8:17)

Siz Allahınız Rəbbin ardınca gedin və Ondan qorxun. **Onun əmrlərinə əməl edib sözlərinə qulaq asın, Rəbbə sitayiş edərək Ona bağlı qalın**. (Qanunun Təkrarı, 13:4)

Allahınız Rəbbi sevin, sözü qulağınızda qalsın və Ona bağlanın. Çünki sizin həyatınız Odur... (Qanunun Təkrarı, 30:20)

Yalnız bu günə qədər etdiyiniz kimi **Rəbbə etibar edin**. (Yeşua, 23:8)

Elə buna görə **ürəklərinizi sünnət edin** ki, bir daha dikbaş olmayasınız. (Qanunun Təkrarı, 10:16)

Tapmaq fürsəti olarkən Rəbbi axtarın, O yaxın ikən Onu çağırın. (Yeşaya, 55:6)

**Bütün qəlbimlə Səni axtarmışam**, Qoyma əmrlərindən çıxım. Sənə qarşı günah etməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam. Ya Rəbb, Sənə alqış olsun! Qaydalarını mənə öyrət. Ağzından çıxan hər hökmü Dilimlə bəyan edirəm. (Zəbur, 119:10-13)

**Rəbb belə bəyan edir ... Bütün qəlbinizlə Mənə dönün**. Paltarlarınızı deyil, ürəyinizi yırtın, Allahınız Rəbbə tərəf qayıdın. Çünki O, lütfkar və rəhmlidir, Hədsiz səbirlidir, bol məhəbbətlidir, Bəla göndərməz, rəhm edər. (Yoel, 2:12-13)



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

# İman Gətirənlər Allahı Sevinclə Xatırlayıb Ucaldar

Onda Allahın qurbangahına, Sevincim, fərəhim olan Allahımın yanına gedərəm. Lira çalıb Sənə şükür edərəm, Ey Allah, mənim Allahım. (Zəbur, 43:4)

Ey bütün xalqlar, **əl çalın, Cuşa gəlib Allaha nida edin!** Haqq-Taala Rəbb necə də zəhmlidir, Bütün yer üzünün böyük Padşahıdır! (Zəbur, 47:1-2)

**Mən isə Sənin qüdrətini tərənnüm edəcəyəm, Sübh tezdən məhəbbətini mədh edəcəyəm.** Çünki Sən mənə qala olmusan, Dar günümdə mənim pənahımsan. Ey mənə qüvvət verən, **Səni tərənnüm edəcəyəm**! Ey Allahım, qalamsan, Mənə məhəbbətini göstərirsən! (Zəbur, 59:16-17)

Ey bütün dünya, cuşa gəlib Rəbbə nida edin, Sevinclə Rəbbə qulluq edin, Mədh oxuyaraq Onun hüzuruna gəlin! Rəbb Allahdır, siz bunu bilin, O bizi yaradıb, biz Ona aidik ... Dərgahına şükürlərlə, Həyətlərinə həmdlərlə gəlin. Ona şükür edin, İsminə alqış söyləyin. Rəbb nə yaxşıdır, məhəbbəti əbədidir, Sədaqəti nəsillərdən-nəslə çatır! (Zəbur, 100:1-5)

Bu şərəfə görə qoy möminlər sevinsinlər, Yataqlarında belə, Onu tərənnüm etsinlər. (Mezmurlar, 149:5)

**Qullarım şadlanıb mədhiyyələr söyləyəcək**, Sizsə ürək ağrısından qışqıracaqsınız, Kədərli ruhla fəryad edəcəksiniz. (Yeşaya, 65:14)

Sevdiyi Yaqubun fəxri olan torpağı Bizə



mülk etmək üçün seçdi. **Sela Allah nida ilə ucaldı, Rəbb şeypur səsi ilə yüksəldi. Tərənnüm edin Allahı, tərənnüm edin! Tərənnüm edin Padşahımızı, tərənnüm edin!** Çünki Allah bütün yer üzünün Padşahıdır, Onu ilahilərlə tərənnüm edin. Allah Öz müqəddəs taxtında əyləşir, Allah millətlərə padşahlıq edir. İbrahimin Allahının xalqı ilə bir yerdə olmaq üçün Xalqların əsilzadələri yığılır, Çünki yer üzünün sipərləri Allahındır. O nə qədər ucadır! (Zəbur, 47:4-9)

Ya Rəbb, daim məhəbbətindən nəğmə oxuyacağam, Sənin sədaqətini dilim hər nəslə deyəcək. Deyirəm ki, məhəbbətin əbədiyaşardır, Sədaqətin göylər qədər sarsılmazdır ... Ya Rəbb, göylər Sənin xariqələrinə şükür etsin, Müqəddəslər camaatı arasında sədaqətinə həmd edilsin ... Ya Rəbb, Ordular Allahı, Sənin tək qüdrətli varmı? Səni sədaqətin bürüyüb ... Salehlik və ədalət taxtının təməlidir, Məhəbbət və sədaqət önündə gedir! (Zəbur, 89:1-2, 5, 8, 14)



*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

# İman Gətirənlər Allahın Əmrlərinə Sevə - Sevə və Zövq Alaraq İtaət Edər

Sağ qalan İsraillilər hansı əhali arasında yaşayırsa, qoy onlar Yerusəlimdəki Allah evinə verəcəkləri könüllü ianələrdən başqa, qızıl-gümüş, əşya və heyvanlar verməklə bu adamlara kömək etsinlər. (Ezra, 1:4)

...Allahınız Rəbbi sevin, tamamilə Allahın göstərdiyi yolla gedin və əmrlərinə əməl edin, Ona bağlanın, bütün qəlbinizlə, bütün varlığınızla yalnız Ona qulluq edin. (Yeşua, 22:5)

**Göstərişlərinin ardınca gedərkən sevinirəm, Elə bil bolluca var-dövlətə çatmışam.** Qayda-qanunlarını dərindən düşünürəm, Sənin yollarından gözümü çəkmirəm. **Qaydalarından zövq alıram**, Sözünü unutmuram. Quluna comərdliyini göstər, Qoy yaşayım və sözünə bağlı qalım. Gözlərimi aç ki, Qanununun xariqələrini görüm. (Zəbur, 119:14-18)

Pislərin məsləhəti ilə getməyən, Günahkarların yolunda dayanmayan, Rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O ancaq Rəbbin Qanunundan zövq alar, Gecə-gündüz bu təlimatı dərin düşünər. (Zəbur, 1:1-2)

Başıma sıxıntı və məşəqqət gəldi, Amma Sənin əmrlərin mənə zövq verdi. Sənin göstərişlərin həmişə ədalətlidir, Mənə ağıl ver ki, yaşayım. (Zəbur, 119:143-144)

Rəbbin qanunu kamildir, canı təzələyir, Rəbbin öyüdü etibarlıdır, nadanı müdrik edir. Rəbbin qayda-qanunları düzdür, ürəyi sevindirir, Rəbbin əmrləri pakdır, gözləri aydın edir. Rəbb qorxusu safdır, əbədi yaşayır, Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir. Onlar qızıldan, bol miqdarda olan saf qızıldan da çox sevilir, Onlar baldan, şanı balından da şirindir. (Zəbur, 19:7-10)

Rəbbin işləri böyükdür, Bunlardan zövq alanlar ibrət götürür. (Zəbur, 111:2)

Başçılar yığılıb mənim üçün qəsd qurdular, Lakin mən qulun qaydalarını dərin düşünürəm. **Göstərişlərin mənə zövq verir**, Onlar mənim məsləhətçilərimdir. (Zəbur, 119:23-24)

Sənin əmrlərindən zövq alıram, Onları sevirəm. Sevdiyim əmrlərinə tərəf əl açacağam, Sənin qaydalarını dərindən düşünəcəyəm. (Zəbur, 119:47-48)

Quluna verdiyin kəlama görə Məhəbbətin mənə təsəlli versin. Mənə mərhəmət et ki, yaşayım, Çünki **qanunundan zövq alıram**. (Zəbur, 119:76-77)

Qızıldan, saf qızıldan çox Sənin əmrlərini sevirəm. Bəli, bütün qayda-qanunlarına görə Mən düz yolla gedirəm, Bütün səhv yollara isə nifrət edirəm. (Zəbur, 119:127-128)

**Əlavə olaraq baxa bilərsiniz:**

**Zəbur, 119: 129-131, 137-140**
**Zəbur, 119 : 92-104**



*"O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar." (Bəqərə surəsi, 4)*

# İNCİLDƏN:

## Ataların Batil Adətinə – Dininə Uymamaq

Bununla belə... **İsaya gəlib, "Şagirdlərin niyə atalarının adətini tapdalayır?" dedilər... İsa onlara bu qarşılığı verdi: "Bəs siz, niyə adətlərinizə görə Allahın buyruğunu tapdalayırsınız?"** (Matta, 15:1-3)



... İsadan soruşdular: **"Şagirdlərin niyə atalarının adətinə zidd davranır?..." İsa onları belə cavabladı: "... Siz Allahın əmrini buraxıb insanların adətini tutursunuz".** İsa onlara ayrıca bunu söylədi: **"İnsanların adətinə uymaq üçün Allahın əmrini rədd edirsiniz".** (Mark, 7:5-9)

## İncildə Allahın Birliyi

Onların müzakirələrini dinləyən və İsanın onlara gözəl cavab verdiyini görən bir din alimi yaxınlaşıb ona: "Buyruqların ən əhəmiyyətlisi hansıdır?"—deyə soruşdu. İsa belə cavab verdi: "[Allahın buyruqlarının] ən əhəmiyyətlisi budur: "Dinlə, ey İsrail! **Allahımız Rəbb tək Rəbdir…** Din alimi İsaya, "Yaxşı söylədin, müəllimim" dedi. "Allah təkdir və Ondan başqası yoxdur" deməklə doğrunu söylədin." (Mark, 12:28-32)

... **Allah birdir.** (Qalatiyalılara, 3:20)

... **Rəbb birdir.** Müxtəlif fəaliyyətlər vardır, amma hər kəsdə hamısını təsirli edən eyni Allahdır. (1 Korinflilərə, 12:5-6)

**Tək bir Allah vardır...** (1 Timoteyə, 2:5)

İsa ona belə cavab verdi: "... **Allahın Rəbbə tapınacaq, yalnız Ona qulluq edəcəksən"** deyə yazılmışdır. (Matta, 4:10)

**Xilaskarımız Tək Allaha ucalıq olsun...** (Yəhuda, 1:24)

**Sən Allahın bir olduğuna inanırsan, yaxşı edirsən.** Cinlər belə buna inanır və [Allah qorxusuyla] titrəyirlər! (Yaqub, 2:19)

Sonsuz çağların Hökmranı, ölümsüz, gözə görünməz tək Allaha çağlar çağı qürur və ucalıq olsun. (1 Timoteyə, 1:17)

Bir-birinizi ucaldan və tək olan Allahdan gələn ucalığı axtarmayan sizlər, mənə necə iman edə bilərsiniz? (Yəhya, 5:44)

İsa yola çıxarkən, biri qaçaraq yanına gəldi. Qarşısında diz çöküb ona: "Yaxşı müəllimim, sonsuz həyata qovuşmaq üçün nə etməliyəm?" deyə soruşdu. İsa



*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

ona, “... **yaxşı olan tək biri var, O da Allahdır.”** (Mark, 10:17-18)



... Bilirik ki, büt dünyada həqiqətdə mövcud olmayan bir şeydir və birdən çox ilah yoxdur... **Bizim üçün tək Allah vardır: Hər şeyin Ondan meydana gəldiyi Allah.** Bizlər də Onun üçün yaşayırıq... (1 Korinflilərə, 8:4-6)

... **Bir tək Allahınız var...** (Matta, 23:9)

İsa, “Mənə niyə yaxşılıq haqqında sual verirsən?” dedi. **“Yaxşı olan tək biri var.** Həyata qovuşmaq istəyirsənsə, **Onun [Allahın] buyruqlarını yerinə yetir”.** (Matta, 19:17)

Yerdə ya da göydə ilah deyə adlandırılanlar varsa da... [Allahı tənzih edərik] **bizim üçün tək bir Allah vardır**. O hər şeyin qaynağıdır, bizlər Onun üçün yaşayırıq. (1 Korinflilərə, 8:5)

... **Rəbb bir, iman bir...** Hər şeydən üstün, hər şeylə və hər şeydə olan hər kəsin Allahı... **birdir.** (Efeslilərə, 4:4-6)

Hər evin bir yaradıcısı vardır, hər şeyin yaradıcısı isə Allahdır. (İbranilərə, 3:4)

# İNCİLDƏ ALLAHIN SİFƏTLƏRİ:

## Allahın Hər Şeyin Yaradıcısı Olması

**...** Birlikdə Allaha belə səsləndilər: “Ey Əfəndimiz! **Yeri göyü, dənizi və onların içindəkilərin hamısını yaradan Sənsən”.** (Həvarilərin İşləri, 4:24)

**Dünyanı və içindəkilərin hamısını yaradan, yerin və göyün Rəbbi olan Allah...** (Həvarilərin İşləri, 17:24)

Hər evin bir yaradıcısı vardır, halbuki **hər şeyin yaradanı Allahdır**. (İbranilərə, 3:4)

**Dünyanı və içindəkilərin hamısını yaradan, yerin və göyün Rəbbi olan Allah... Hər kəsə həyat, nəfəs və hər şeyi verən Özü olduğuna görə... Allah, bütün xalqları tək insandan yaratdı və onları yer üzünün hər tərəfinə yerləşdirdi.** (Həvarilərin İşləri, 17:24-25)

... Sizi bu boş şeylərdən imtina etməyə, **göyü, yeri, dənizi və bunların içindəkilərin hamısını yaradan... Allaha dönməyə çağırırıq...** [Allah] sizə lütf edir. Göydən yağış yağdırır, müxtəlif məhsullarıyla mövsümləri təşkil edir, sizi yeməklə doyurub ürəklərinizi sevinclə doldurur. (Həvarilərin İşləri, 14:15-17)

Allahdan qorxun! Onu ucaldın! Çünki Onun mühakimə etmə saatı gəldi. **Göyü, yeri, dənizi və su mənbələrini Yaradana qulluq edin!** (Vəhy, 14:7)

Yenə deyir ki, **“Ya Rəbb, başlanğıcda yerin təməllərini Sən atdın.** Göylər də



*“O kəslər ki, sənə göndərilənə (Qurana) və SƏNDƏN ƏVVƏL GÖNDƏRİLƏNLƏRƏ iman gətirir, axirətə də şəksiz-şübhəsiz inanırlar.” (Bəqərə surəsi, 4)*

Sənin əllərinin əsəridir.” [Allahın hər şeyi yoxdan var etdiyi, hər şeyi yaradanın Allah olduğu təşbeh edilərək izah edilmişdir.] (İbranilərə, 1:10)

**Hər şeyin qaynağı Odur; hər şey Onunla və Onun üçün var oldu.** Sonsuza qədər Ona ucalıq olsun. Amin. (Romalılara 11:36)

... Biz Allahın əsəriyik, Onun əvvəldən hazırladığı yaxşı işləri etmək üzrə... yaradıldıq. (Efeslilərə, 2:10)

O... **bizi, Öz istəyinə uyğun olaraq... həyata qovuşdurdu.** (Yaqub, 1:18)

... Belə deyirlər: “Rəbbimiz və Allahımız! Ucalığı, hörməti, gücü almağa layiqsən. **Çünki hər şeyi Sən yaratdın; hamısı Sənin istəyinlə yaradılıb var oldu”** (Vəhy, 4:9-11)

... **Yerdə və göydə, görünən və görünməyən hər şey -taxtlar, hakimiyyətlər, rəhbərliklər, hökmranlıqlar- Onda yaradıldı. Hər şey Onun tərəfindən və Onun üçün yaradıldı.** Hər şeydən əvvəl var olan Odur və hər şey varlığını Onda davam etdirir. (Kolosselilərə, 1:16-17)

**O [Allah] hər şeyin qaynağıdır, bizlər Onun üçün yaşayırıq. Tək bir Rəbb var... Hər şey Onun tərəfindən yaradıldı, biz də Onun diləməsiylə yaşayırıq.** (1 Korinflilərə, 8:6)

## Allahın Əzəli və Əbədi Olması

**Hər şeydən əvvəl var olan Odur və hər şey varlığını Onda davam edir.** (Kolosselilərə, 1:17)

**Ölümsüzlük yalnız Ona [Allaha] aiddir...** Onu nə görən olmuşdur, nə də kimsə görə bilər... (1 Timoteyə, 6:16)

**Qürur və ucalıq sonsuzlara qədər ölümsüz, görünməz tək Allahın olsun...** (1 Timoteyə, 1:17)

... **Başlanğıcdan bəri mövcud olanı [Allahı] tanıyırsınız.** (1 Yəhya, 2:14)

Gerçək... **[Haqq olan Allah] sonsuza qədər bizimlə olacaq.** (2 Yəhya, 1:2)

... İyirmi dörd qoca üzü üstə yerə əyildi. Allaha tapınaraq belə dedilər: **“Hər şeyə gücü çatan, [hər zaman] mövcud olan, var olan Rəbb Allah!** Sənə şükür edirik...” (Vəhy, 11:16-17)

... Gecə gündüz dincəlmədən belə deyirlər: “Müqəddəs, müqəddəs, müqəddəsdir, **Hər şeyə gücü çatan Rəbb Allah, [hər zaman] var olmuş, var olan və gələcəkdə də var olacaq olan.”** (Vəhy, 4:8)

Hər şeyin qaynağı Odur [Allahdır]; hər şey Onun tərəfindən və Onun üçün yarandı. **Sonsuza qədər Ona ucalıq olsun.** (Romalılara, 11:36)

**Ölümsüz Allahın ucalığı...** (Romalılara, 1:23)




# 2 AYƏDƏ BAŞQA 1 AYƏNİN BİRLƏŞMƏSİ:

**YUNUS: 105**
**Və: “Batildən haqqa tapınaraq üzünü islam dininə çevir, müşriklərdən olma,**

**1) <u>RUM, 30:</u>**
**<u>Batildən haqqa tapınaraq üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə</u>** *(islama)* **<u>tərəf tut.</u>** Allahın dinini heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti bilməz.

**2) <u>QASAS, 87:</u>**
Allahın ayələri sənə nazil edildikdən sonra ehtiyatlı ol ki, səni *(onları təbliğ etməkdən)* çəkindirə bilməsinlər. Rəbbinə dəvət et **<u>və əsla müşriklərdən olma!</u>**

**MUMİN: 82**
**Məgər onlar yer üzünü dolaşıb özlərindən əvvəlkilərin axırının necə olduğunu görmürlərmi? Onlar bunlardan daha çox, daha qüvvətli, yer üzündə daha çox iz qoymuş kimsələr idi. Qazandıqları onlara bir fayda vermədi.**

**1) <u>RUM, 9:</u>**
**<u>Məgər onlar yer üzünü gəzib özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar bunlardan daha qüvvətli idilər. Onlar torpağı qazıb altını üstünə çevirmiş və yer üzünü bunlardan daha çox abad etmişdilər.</u>** Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər.

**2) <u>ZUMƏR, 50:</u>**
Şübhəsiz ki, bu sözü onlardan əvvəlkilər də demişdilər. Lakin **<u>qazandıqları onlara heç bir fayda vermədi.</u>**




# 3 AYƏDƏ BAŞQA 1 AYƏNİN BİRLƏŞMƏSİ:

**BƏQƏRƏ, 153:**
**Ey iman gətirənlər! Səbr və dua ilə** *(namazla Allahdan)* **kömək diləyin. Çünki Allah səbr edənlərlədir.**

**BƏQƏRƏ 87/2, 163:**
**Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir.**

**1) MUHƏMMƏD, 33:**
**Ey iman gətirənlər!** Allaha itaət edin, Peyğəmbərə itaət edin və əməllərinizi puça çıxartmayın!

**2) BƏQƏRƏ, 45:**
**Səbr etmək və namaz qılmaqla** *(Allahdan)* **kömək diləyin!** Bu, ağır iş olsa da, *(Allaha)* itaət edənlər üçün ağır deyildir.

**3) ƏNFAL, 46:**
Allah və Onun Peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbr edin, **çünki Allah səbr edənlərlədir!**

**1) NƏHL, 22:**
**Sizin tanrınız bir olan Allahdır.** Axirətə inanmayanların qəlbləri isə inkar edər. Onlar özlərinə sığışdırmazlar.

**2) ƏNAM, 102:**
O Allah Rəbbinizdir! **Ondan başqa heç bir tanrı yoxdur.** Hər şeyi yaradan Odur. Buna görə də yalnız Ona ibadət edin. O, hər şeyə vəkildir!

**3) HƏŞR, 22:**
O Özündən başqa heç bir tanrı olmayan, gizlini də, aşkarı da bilən Allahdır. **O rəhmlidir, mərhəmətlidir!**

# HAQQI YILMAZIN ARAŞDIRMALARINA ƏSASƏN QURANDAKI BƏZİ SÖZLƏRİN MƏNALARI

**İBADƏT** – *İbadət* sözü dilimizə ərəb dilindəki orjinal formada daxil olmaqla birlikdə, əsl mənasını, yəni insanın "qulluq, köləlik etmək" məqsədli davranışlarıyla bağlı mənasını əsasən itirmiş, sadəcə müəyyən ritualları, ayinləri ifadə etmək məqsədi ilə işlədilmişdir. *A-bə-də* kök feilinin məsdər forması olan *ibadət* sözü "bəndəlik etmək, köləlik etmək" mənasına gəlir. Bu məna isə insanın qeydsiz-şərtsiz təslim olmasını, itaət etməsini, boyun əyməsini ifadə edir. Dini termin olaraq *ibadət* sözü "bəndənin öz sahibi / yaradanı qarşısında, öz sahibi / yaradanı tərəfindən verilən vəzifələri qeydsiz-şərtsiz qəbul edərək yerinə yetirməsi" mənasını daşıyır. Hər şeyi yaradan Allah, bəndələri üçün müəyyən etdiyi davranış qaydalarını və həyat tərzini onlara müxtəlif şəkillərdə bildirmiş, ən nəhayətində bütün bu qaydaları Quranda cəm etmişdir. Bu həqiqətin işığında *ibadət*, Allah tərəfindən bir təlimatnamə [Quran] vasitəsilə bəndələrə bildirilən vəzifələrə bəndələrin qeydsiz-şərtsiz itaət etməsi və tabe olması, bu vəzifələri yerinə yetirməsi deməkdir. Elə isə, *ibadət* xalq arasında qəbul edildiyi kimi, sadəcə olaraq bir neçə əməli yerinə yetirməkdən ibarət deyil. *İbadət* – Allahın göndərdiyi "bəndəlik təlimatnaməsində" bildirilən bütün vəzifələri icra etmək, bütün tapşırıqları yerinə yetirmək deməkdir.

**ELÇİNİN SÖZÜ** – Elçinin sözü "Elçi tərəfindən, əskildilib-artırılmadan, özündən bir şey əlavə edilmədən təbliğ edilən, onu elçi kimi göndərənin sözü" kimi başa düşülməlidir.

**ƏRŞ** - *Ərş* "ən böyük, ən uca məqam / taxt" deməkdir. Quranda 26 dəfə işlədilmişdir. Bunlardan dördü Nəml surəsində Səba mələkəsinin taxtı, biri Yusuf surəsində Yusuf peyğəmbərin taxtı olmaqla, bəndələr üçün istifadə edilmişdir. 21 yerdə isə məcazi olaraq Allahın taxtından bəhs edilmişdir.
Burada ərşin məcazi olaraq Allaha məxsus olduğunun göstərilməsi, Allahın ən uca məqam sahibi olduğunu, Ondan üstün bir idarəçi olmadığını bildirmək məqsədini güdür.
Ayədəki *fövqəladə qüvvələri olan, üstün ağıl sahibi və ərşdə hökmranlığını qurmuş olan* ifadələriylə "Allah" nəzərdə tutulmuşdur. Əlbəttə bu sözlər həqiqi mənasında yox, məcazi mənada başa düşülməli və burada, Allahın zatından yox, Onun təcəllasından, Onun qüdrətinin əks olunmasından söhbət getdiyi bilinməlidir. Musa peyğəmbərə ilk vəhy gəldikdə Allahın "dağda, ağacda bir alov" kimi təcəlla etdiyi də Quranda yer almışdır.
Ayənin orjinalındakı *isteva* sözünün məcazi mənası belədir: "hakimiyyət qurdu, nəzarət altına aldı". Ayələrdə görüldüyü kimi, "ərşə isteva etdi" sözü "ən böyük, ən uca məqamda hakimiyyət qurdu, nəzarəti öz əlinə aldı" mənasına gəlir. Bu mütəşabeh qavram, ayədə məcazi mənasıyla işlədilmişdir. *İsteva* sözü "Rəsmi Müshəf"də bu ayələrdə işlədilir: Yunus / 3, Rə'd / 2, Furqan / 59, Səcdə / 4, Taha / 5, Əraf / 54, Bəqərə / 29. Ayədə *isteva edən* ifadəsiylə nəzərdə tutulan da Allahdır. Çünkü *isteva* Allahın sifətlərindən biri olub, mələklərin yaxud bəndələrin sifəti deyil.

**AÇIQ - AYDIN ÜFÜQ** - Qəlbi tərəddüd etmədən, gözü yanılmadan və həddi aşmadan.

**ŞEYTAN** – *Şeytan* sözünün lüğət mənası "haqdan uzaq olan" deməkdir. Qavram olaraq "haqqa və ağla zidd hərəkət edən bütün şəxslərin, güclərin və qurumların ümumi və xarakteristik adı" kimi qəbul edilməlidir.
Şeytanın kim yaxud nə ola biləcəyi, xüsusiyyətləri Quranda təfsilatı ilə mövcuddur. Qurana görə şeytan: a) haram

yeməyi, haqsız qazanc əldə etməyi təklif / əmr edən; b) pislik, həyasızlıq etməyi, Allaha qarşı bilmədiyimiz şeyləri söyləməyi bizə təlqin edən; c) bizi yoxsulluqla qorxudan; d) bizim vəhmə qapılmağımıza səbəb olan; e) Allahın yaratdıqlarını dəyişdirməyi bizə əmr edən; f) yoldan çıxarmaq məqsədi ilə bizə bər-bəzəkli sözlər pıçıldayan; g) bizə vəsvəsə verən, zehnimizi qarışdıran; h) işlədiyimiz əməllərlə bizi şıltaqlaşdıran; i) bizi yoldan azdıran; j) içki / narkotik vasitə və qumar vasitəsiylə insanların arasına düşmənçilik və kin salmaq istəyən; k) bizi Allahı yada salmaq və Ona bəndəlik etməkdən geri qoymaq istəyən şəxslər və güclərdir.
"Qovulmuş şeytan", "inadkar şeytan" ifadələri də Quranda "İblis" barəsində işlədilmişdir. "İblis" isə "insanın düşüncə qabiliyyəti"dir. Quranda İblis – gözə görünməyən, insanın zehninə vəsvəsə verən; xam fikirlər meydana gətirən, insanlara onların ətraflarından yaxınlaşan, təsir nəticəsində fəaliyyətə keçən, təsirsiz sahələrdə fəaliyyət göstərməyən, canlılardan sadəcə insanda olan, insana tabe olmayan, enerjidən yaradılmış bir güc, qabiliyyət şəklində tərif edilmişdir. Quranda bu qabiliyyət müşəxxəs formada işlədilmişdir. Daha ətraflı məlumat üçün "Təbyinül-Quran"a baxa bilərsiniz.

**ADINI TƏSBEH ET!** – *Adın təsbeh edilməsi / adın pak tutulması:* Bir adı "təsbeh" etmək [nöqsanlarda uzaq tutub ucaltmaq], əslində o adın sahibini "təsbeh" etmək deməkdir. Çünkü adın sahibinin ucalığı və müqəddəsliyi, adın ucalığı və paklığı ilə ifadə edilir. Yəni adın təsbeh edilməsinin məqsədi, Rəbbimizə yaraşmayan ad və sifətləri Ondan uzaq tutmaq, Onun adına atılan iftiraları təmizləməkdir. Quranın nazil olduğu dövrdə ərəblər arasında müəyyən səhv və axmaq inanışlar mövcud idi. Məsələn: a) mələklərin Allahın qızları olduğu; b) Üzeyir və İsanın Allahın oğlu olduğu; c) bəzi mələklərin və bütlərin insanları Allaha yaxınlaşdırdığı; d) cinlərlə Allah arasında nəsəb əlaqəsi [soy bağı] olduğu inanışları. Ona görə də, "adı təsbeh etmək" əmrini yerinə yetirmək üçün bu cür inanışları əks etdirən ad və sifətləri Rəbbimizin ad və sifətləri arasından dərhal çıxarmaq lazım gəlir.

**ALLAHDAN QORXMAQ** – Allahın mühafizəsi altına daxil olmaq.

**DİRƏKLƏR SAHİBİ** – Pazların sahibi; möhtəşəm orduları olan / görülməmiş işgəncələr verən.
"Pazların sahibi" ifadəsi klassik ərəb dilində işlədilən, bədəvilərə məxsus qədim bir termindir. Bu termin "böyük bir nüfuz sahibi" yaxud "sarsılmaz, yıxılmaz bir güc" mənasında işlədilirdi. Bədəvi çadırını saxlayan pazların sayı, o çadırın böyüklüyünə görə müxtəlif olurdu. Çadırın böyüklüyü isə sahibinin statusuna və gücünə görə müxtəlif olurdu. Buna görə, güclü bir qəbilə rəisi çox vaxt "saysız-hesabsız dirəklərin üstündə dayanan çadırın sahibi" kimi təqdim edilirdi.

**NÖVBƏTİ SERİYADA ARDI VAR...**

# ALLAHI İSİMLƏRİ İLƏ TANIYAQ



## ƏZİZ

**Üstün, Qüvvətli, Güclü, Şərəfli, Məğlub edilməsi mümkün olmayan, Qalib olan**

**“Allahın peyğəmbərlərə verdiyi vədə xilaf çıxacağını sanma! Həqiqətən, Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!” (İbrahim Surəsi, 47)**

Allahın Əziz sifəti Onun məğlub edilməsinin qeyri-mümkün olduğunu, hər zaman qalib olanın Özü olduğunu ifadə edir. Allah kainatda mütləq qüvvət sahibidir və Ondan üstün heç bir güc yox-dur.

Kainatdakı bütün nizamı, insanların sirrini qavramadıqları və ya yeni-yeni kəşf etdikləri bütün qanunları yaradan Allahdır. Bununla yanaşı, yer üzündə olan hər canlını yaradan da Odur. Allahın sonsuz gücü və qüdrəti qarşısında yaratdıqlarının acizliyi açıq-aşkardır. Yaratdığı bütün varlıqlar, ancaq Onun əmri ilə hərəkət edir, həyatlarını davam etdirir, müəyyən nizam içində yaşayırlar.

Şübhəsiz, bu acizlik yer üzünə hakim olduğunu zənn edən insan üçün də əsaslıdır. İnsan nə qədər güclü, zəngin və etibarlı olsa da, Allah qarşısında aciz və gücsüzdür. Nə malı, nə pulu, nə də ona etibar edən insanların sayı onu Allahın əzabından qoruya bilməz. Ancaq Allaha təslim olan, Onun əmrlərinə tabe olan, razılığını qazanmağa çalışanlar xaric... Allah Quranda həmişə Öz tərəfdarlarına üstünlük verəcəyini vəd etmişdir.

Ayələrdə belə buyurulur:

***Allah: "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!*** (Mücadilə surəsi, 21)

***Daha öncə insanları hidayət etmək üçün Furqanı da O nazil etdi. Allahın ayələrini inkar edənlər şiddətli əzaba düçar olacaqlar. Allah yenilməz qüvvət, intiqam sahibidir!*** (Ali-İmran surəsi, 4)

***Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətlə boyun qoyar-aq o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər.*** (Ali-İmran surəsi, 18)

*Onların sözləri səni kədərləndirməsin. Yenilməz izzət bütövlükdə yalnız Allah`a məxsusdur. O, eşidəndir, biləndir! (Yunis surəsi, 65)*

***Kitabın** (Quranın) **nazil edilməsi yenilməz qüvvət sahibi olan,** (hər şeyi) **bilən Allahdandır - Günahları bağışlayan, tövbələri qəbul edən, cəzası şiddətli, kərəmi böyük olan** (Allahdandır)**! Ondan başqa heç bir tanrı yoxdur. Axır dönüş də Onadır! Allahın ayələri barəsində ancaq kafirlər mübahisə edər. Onların şəhərlərdə gəzib-dolaşmaları səni aldatmasın! Onlardan əvvəl Nuh qövmü, sonrakı firqələr də təkzib etmiş, hər ümmət öz peyğəmbərlərini yaxalamağa** (tutub öldürməyə) **cəhd göstərmiş və haqqı yalana çıxartmaq məqsədilə boş sözlərlə mübahisə aparmışdılar. Buna görə də Mən onları əzabla yaxaladım. Mənim cəzam necə oldu! Küfr edənlərin cəhənnəmlik oduna dair sənin Rəbbinin sözü belə gerçəkləşdi!*** (Mumin (Ğafir) surəsi, 2-6)

# BAİS

## Göndərən (peyğəmbər), Oyandıran, Dirildən

**"Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O, sizi diriltdi. O, sizi yenə öldürəcək, sonra yenə də dirildəcək və daha sonra siz Ona tərəf qaytarılacaqsınız." (Bəqərə surəsi, 28)**

Şübhəsiz, yer üzündə indiyədək yaşayan və bundan sonra da yaşayacaq bütün insanlar ölümlüdür. Hər kəs bir gün öləcək və məzara qoyulacaq. Ancaq bu açıq-aşkar gerçəyə baxmayaraq, insanların böyük əksəriyyəti ölümü düşünmür və məzara qoyulduqdan sonra təkrar dirildiləcəklərini də görməzlikdən gəlirlər. Quranda bu şəxslərin vəziyyəti belə xəbər verilir:

***Deyirlər: "Doğrudanmı, biz əvvəlki vəziyyətimizə qaytarılacağıq?! Özü də çürümüş sümüklər olduğumuz zamanmı?!"*** (Naziat surəsi, 10-11)

Quranda insanların qəflətlə soruşduqları bu suala ən açıq şəkildə cavab verilir:

***Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim dirildə bilər?!"deyə, hələ Bizə bir məsəl də çəkdi. " De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu çox gözəl tanıyandır!"*** (Yasin surəsi, 78-79)

Yuxarıdakı ayələrdə də bildirildiyi kimi, Allah bütün insanları ilk dəfə yaradandır. Gəlmiş-keçmiş bütün insanları bir-birlərindən fərqli xüsusiyyətlərlə yaratmışdır. Belə ki, bu gün bilindiyi kimi, hər insanın barmaq ucuna qədər bir çox xüsusiyyəti digər insanlardan fərqlidir. Şübhəsiz, onları ilk dəfə yaradan Allah ikinci dəfə və hətta sonsuz sayda eyni şəkildə yaratmağa qadirdir. Necə ki, Allah bunun dəlillərini bizlərə yer üzünün dirilməsində göstərir.

Ətrafımıza baxdığımız zaman hər payız bütün təbiətin "öldüyünə" şahid oluruq. Bu "ölüm" bütün qış mövsümü ərzində davam edir. Ancaq yaz gəldiyi zaman ağacların qupquru olmuş budaqlarında yenidən rəngarəng çiçəklərin, yamyaşıl yarpaqların çıxdığını, bütün təbiətin canlanaraq yaşıllandığını görürük. Üstəlik, bu "ölümdən sonra diriliş" minlərlə ildir heç dayanmadan davam edir. Belə ki, insanın ölümündən sonra dirilişi də Allah üçün bu dərəcə asandır. İnsanın dirildilməsi ilə təbiətin dirildilməsi arasındakı bu bənzərliyə Allah ayələrində belə diqqət çəkmişdir:

*(Allah)* ***ölüdən diri, diridən də ölü çıxardır, öləndən sonra torpağı dirildir. Siz də belə çıxardılacaqsınız.*** (Rum surəsi, 19)

***Sən Allahın rəhmətinin əsər-əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirildir. Doğrudan da O, ölüləri dirildəndir. O, hər şeyə qadirdir!*** (Rum surəsi, 50)

Allahın Bais sifətinin bir başqa mənası da peyğəmbər göndərəndir. Allah insanlara xəbərdarlıq edən, qorxudan, müjdə verən elçilər göndərmiş və onları doğru yola dəvət etmişdir. Elçilərindən bəzisinə insanları qaranlıqdan işığa çıxaracaq kitablar vəhy etmişdir. Şübhəsiz, bu, Allahın insanlara böyük bir lütfüdür. Quranda belə buyurulur:

***İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən*** *(əzabla qorxudan)* ***peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi. Halbuki özlərinə aşkar dəlillər gəldikdən sonra aralarındakı kin*** *(və həsəd)* ***üzündən*** *(dində)* ***ixtilafda bulunanlar kitab əhlindən başqası deyildir. Onların ixtilafda olduqları həqiqətə Onun izni ilə iman gətirənləri isə Allah doğru yola yönəltdi. Allah istədiyini düz yola istiqamətləndirər.*** (Bəqərə surəsi, 213)

***Allah möminlərə lütf etdi. Çünki onların öz içərisindən özlərinə*** *(Allahın)* ***ayələrini oxuyan, onları təmizləyən, onlara kitabı və hikməti öyrədən bir peyğəmbər göndərdi. Halbuki, bundan əvvəl onlar açıq-aydın zəlalət içərisində idilər.*** (Ali-İmran surəsi, 164)

# BAQİ

## Davam edən, Fani olmayan

**(Yer) üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir. (Rəhman surəsi, 26-27)**

Kainatdakı bütün varlıqlar ölümə məhkumdur. İnsan doğulur, yaşayır və dünyada yaşadığı məhdud ömrün sonunda ölür. Bu son bütün insanlar üçün qaçılmazdır. İnsanlar kimi bitkilər və heyvanlar aləminin də yox olması qaçılmazdır. Onlar da doğulduqdan bir müddət sonra bir-bir ölürlər. Məsələn: ağac yer üzündə yüz illərlə yaşaya bilər. Lakin ən sonda ölümə məhkumdur. Canlı olan hər şey həyatını bitirib torpağın altına girəcək və yox olacaq.

Eyni şəkildə, cansız varlıqların da sonu var. Zamanla hamısı məhvə məhkumdurlar. Məsələn, min illərlə bundan əvvəl ehtişam içində yaşamış qövmlərdən bu gün yalnız xarabalıqların geriyə qaldığını görürük.

Allah Quran'da, ***"Neçə-neçə məmləkəti zülm edərkən məhv etdik; onlar alt-üst olmuşdu. Neçə-neçə quyular, neçə-neçə möhtəşəm qəsrlər bomboş qalmışdı"*** (Həcc surəsi, 45) ayəsi ilə bu gerçəyə diqqət çəkmişdir.

İçində yaşayan varlıqların sonu olduğu kimi, kainatın da sonu var. Kainatdakı bütün göy cisimləri, günəş, ulduzlar, bir gün enerjilərini bitirib yox olacaqlar və ya Allah dilədiyi başqa bir səbəblə bütün kainatı yox edəcək, qiyamət günü ilə əlaqədar olan vədini reallaşdıracaq.

Görüldüyü kimi, hər şey sonludur; kainat da, yaradılmış bütün varlıqlar da...

Allah isə yaradandır. Və sonsuzluq yalnız Özünə aiddir.

Rəbbimiz insanlara Quranda belə buyurur:

***Sizə verilən hər hansı bir şey ancaq bu fani dünyanın malı və bərbəzəyidir. Allah yanında olan isə daha yaxşı və daha baqidir. Məgər ağıla gəlməzsiniz?!***

(Qasas surəsi, 60)

***Əlbəttə, Allah (Quranda) ağcaqanadı və ya ondan daha böyüyünü misal gətirməkdən çəkinməz. İman gətirənlər bunun öz Rəbbi tərəfindən bir həqiqət olduğunu bilirlər, kafirlər isə: "Allah bu məsəllə nə demək istəyir?" -deyirlər. Allah bununla (bu məsəllə) bir çoxlarını zəlalətə salır, bir çoxlarını isə doğru yola yönəldir. Allah yalnız fasiqləri zəlalətə düçar edir.*** (Bəqərə surəsi, 26)

***Allah hər heyvanı (canlını) bir sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir!***

(Nur surəsi, 45)

# BARİ

## Yaradan, Qüsursuz şəkildə var edən

**O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)**

Yaşadığımız kainatda hara baxsaq, tarazlıq və ahəngə rast gəlirik. Xüsusilə elm sahəsində yeni inkişaflarla bu günə qədər bilinməyən bir çox detal ortaya çıxdıqca bu tarazlıq və ahəng daha da dəqiqləşir. Görünən odur ki, kainat üzərində var olan hər sistem üstün bir ağılın dizaynıdır. Bu üstün ağılın sahibi hər şeyi heyrətamiz nizam içində var etmişdir. Kainatdakı hər cisim, yer üzündə yaşayan milyardlarla canlı möhtəşəm ahəng içində varlıqlarını davam etdirirlər. Təbiətdəki nizam heç bir şəkildə pozulmur və milyonlarla ildir son dərəcə sabit şəkildə davam edir.

Yalnız dünya üzərindəki həyatı araşdırdığımızda belə bir çox heyrətamiz detalla qarşılaşırıq. Ətrafımız fərqində olduğumuz və ya olmadığımız saysız yaradılış dəlili ilə doludur. Məsələn, havadakı qazların qarışığı bütün canlıların həyatlarını davam etdirə bilməsi üçün ən əlverişli şəkildə təşkil olunmuşdur.

İnsanlar və heyvanlar yaşamaq üçün oksigen alıb, karbon verirlər. Ancaq bu əməliyyat dayanmadan davam etdiyi üçün havadakı oksigen miqdarı azalıb, karbonun miqdarı artaraq mövcud tarazlığı pozmur. Çünki burada çox incə nizam var: insanların və heyvanların əksinə bitkilər həyatlarını davam etdirərkən karbon alıb oksigen verirlər. Buna görə də insanların və heyvanların aldığı oksigen bitkilər vasitəsilə təkrar qaytarılır və dünyadakı tarazlıq qorunur.

Şübhəsiz, bu nümunə dünya üzərində görə biləcəyimiz yaradılış dəlillərindən sadəcə biridir. Həm mikro, həm də makro aləmi araşdırdıqda bunun kimi saysız nümunə ilə qarşılaşmaq mümkündür. Əgər kainat və kainatla yanaşı, dünya üzərindəki canlılar varlığını davam etdirə bilirsə, bu, üstün ağıl sahibi, hər şeyin yaradıcısı olan Rəbbimizin hər şeyi bir-birinə uyğun olaraq yaratması ilə mümkündür. Allah bir ayəsində belə buyurur:

***O vaxtı da xatırlayın ki, Musa öz qövmünə: "Ey qövmüm, siz buzova sitayiş etməklə, həqiqətən, özünüzə zülm etdiniz. Buna görə də yaradanınıza tərəf üz tutaraq tövbə edin, özünüzü*** *(nəfsinizi)* ***öldürün! Belə etməniz yaradanınızın yanında sizin üçün xeyirlidir!" demişdi və Allah da tövbənizi qəbul etmişdi. Əlbəttə, O, tövbələri qəbul edəndir, bağışlayandır.*** (Bəqərə surəsi, 54)

***Ey insanlar! Öləndən sonra yenidən diriləcəyinizə şübhəniz varsa*** *(ilk yaradılışınızı yada salın)*. ***Həqiqətən, Biz sizi torpaqdan, sonra mənidən*** *(nütfədən)*, ***sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş və düşməmiş bir parça ətdən yaratdıq ki,*** *(qüdrətimizi)* ***sizə göstərək. İstədiyimizi ana bətnində müəyyən bir müddət saxlayar, sonra sizi*** *(oradan)* ***uşaq olaraq çıxardarıq. Sonra yetkinlik çağına yetişəsiniz deyə*** *(sizi böyüdərik)*. ***Kiminiz vəfat edər, kiminiz də ömrün elə bir rəzil çağına çatdırılar ki, vaxtilə bildiyini bilməz olar. Sən yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə gəlib qabarar və hər növ gözəl*** *(meyvədən, bitkidən)* ***bar gətirər. Bu ona görədir ki, Allah haqdır, ölüləri diriltdir və O, hər şeyə qadirdir!*** (Həcc surəsi, 5-6)